RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 110 (8989) CÜMƏ AXŞAMI, 26 may 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# "TEKNOFEST-2022" – qardaşlığın yeni zirvəsi



→ 5



## Sarsılmaz qardaşlığımız regionda sülhün ən böyük təminatçısıdır

### Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident, Əziz Qardaşım.

Can Azərbaycanın Müstəqillik Günü münasibətilə xalqım adından və şəxsən öz adımdan Zati-alinizi və bütün Azərbaycan xalqını səmimi-qəlbdən təbrik edirəm.

Bu mühüm və əlamətdar ildönümündə Türkiyə kədərini öz kədəri, sevincini öz sevinci kimi qəbul etdiyi qardaş Azərbaycanın haqlı qürurunu və həyəcanını ürəyində böyük xoşbəxtlik hissi ilə duyur.

"Bir millət, iki dövlət" şüarı ilə davam etdirdiyimiz mükəmməl səviyyədəki əlaqələrimizi Şuşa Bəyannaməsinə uyğun olaraq müttəfiqlik iradəsi ilə gücləndirdiyimizə görə məmnunluq hissi keçirirəm. Ortaq səylərimiz, nümunəvi həmrəyliyimiz və sarsılmaz qardaşlığımızın keçmişdə olduğu kimi, gələcəkdə də regionumuzda sülhün, rifahın və sabitliyin ən böyük təminatçısı olmaqda davam edəcəyinə ürəkdən inanıram.

Fürsətdən istifadə edərək Zati-alinizə cansağlığı və xoşbəxtlik arzulayır, dost və qardaş Azərbaycan xalqına əmin-amanlıq və rifahının davamlı olması üçün ən xoş diləklərimi bir daha ifadə edirəm.

*Hörmətlə,*

***Rəcəb Tayyib ƏRDOĞAN,***
***Türkiyə Respublikasının Prezidenti***

## Prezident Azərbaycan-Estoniya münasibətlərinin uğurlu inkişafında qarşılıqlı səfərləri önəmli hesab edir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 25-də Estoniya Respublikası parlamentinin Sədri Yuri Ratasın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Azərbaycanla Estoniya arasında ikitərəfli münasibətlərin gələcəkdə də uğurla inkişaf edəcəyinə ümidvar olduğunu bildirərək qarşılıqlı təmasların önəmini qeyd etdi və bu baxımdan Azərbaycan parlamenti Sədrinin Estoniyaya, Estoniya parlamenti Sədrinin isə ölkəmizə səfərinin həm ikitərəfli münasibətlərin, o cümlədən parlamentlərarası əməkdaşlığın genişlənməsinə töhfə verdiyini bildirdi.

Prezident İlham Əliyev Yuri Ratasın başçılıq etdiyi nümayəndə heyətinin Şuşaya səfərinə toxunaraq bu səfərin ermənilərin həmin ərazilərdə işğal dövründə törətdikləri genişmiqyaslı dağıntıları öz gözləri ilə görmələri baxımından çox önəmli olduğunu vurğuladı.

→ 2

## Böyük qayıdışa əngəl yalnız minalardır

44 günlük Vətən müharibəsinin zəfərlə başa çatmasından sonra Azərbaycan dövlətinin qarşısında duran əsas milli prioritet keçmiş məcburi köçkünlərin doğma yurdlarına ləyaqətli və təhlükəsiz qayıdışıdır. Buna görə də qələbədən dərhal sonra Azərbaycan işğaldan azad etdiyi Qarabağ və Şərqi Zəngəzur bölgəsində ərazilərin bərpasına və yenidən qurulmasına başlayıb.

Doğma yurdlarına qayıdacaq vətəndaşlarımızın yaşayışı və işgüzar fəaliyyəti üçün Qarabağda mühüm layihələr həyata keçirilir. İşğaldan azad edilən ərazilərimizdə infrastruktur bərpa olunur, yollar çəkilir, su-elektrik stansiyaları tikilir, beynəlxalq hava limanlarının təməlləri qoyulur, istifadəyə verilir, "ağıllı kənd", "ağıllı şəhər"lər salınır. İşğalçı Ermənistan tərəfindən barbarlıqla dağıdılan, məhv edilən tarixi, mədəni, dini irsimiz bərpa olunur.

Lakin işğalçı Ermənistanın faşist xislətinə xas olaraq torpaqlarımızda saysız mina basdırması bu prosesin tez bir zamanda baş verməsini ləngidən əsas səbəbdir.

→ 5

## Yarım əsrdən artıq tarixində Davos Forumu ilk dəfə ən çətin suallara cavab axtarır




→ 5

## Təbiət köməyə gəlir

### Havaların yağmurlu keçməsi taxılçıların işinə yarayır

→ 7

## Vətəni şəxsi maraqlar üçün qorumurlar

Müharibə deyəndə ölümsaçan silahların dil açdığı, arzuların ürəklərdə məhv edildiyi, ata həsrətli bir körpənin göz yaşında böğulduğu, ölüm, itim göz önündə canlanır. Ağrısına, əzabına baxmayaraq, müharibədə qazanılan zəfərdən böyük qələbə, bu qələbənin sevinci qədər fərəhli, qürurlu hiss yoxdur.

Hamı bu sevinci bölüşmək, ondan pay götürmək, qələbənin gətirdiyi qüruru yaşamaq istəyir. 30 il idi ki, xalqımız qələbəyə, onun sevincinə həsrət idi. 44 günlük Vətən müharibəsi yurd nisgilinə, Vətən həsrətinə son qoyduğu kimi, təşnəsində olduğumuz böyük qələbənin sevincini yaşamaq xoşbəxtliyini nəsib etdi bizlərə.

→ 6

## İrəvan əhalisi küçə aksiyalarından bezib

### Keçmiş hərbi xunta indi də uşaqları siyasi alətə çevirir

→ 8

# Prezident Azərbaycan-Estoniya münasibətlərinin uğurlu inkişafında qarşılıqlı səfərləri önəmli hesab edir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 25-də Estoniya Respublikası parlamentinin Sədri Yuri Ratasın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**



AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Azərbaycanla Estoniya arasında ikitərəfli münasibətlərin gələcəkdə də uğurla inkişaf edəcəyinə ümidvar olduğunu bildirərək qarşılıqlı təmasların önəmini qeyd etdi və bu baxımdan Azərbaycan parlamenti Sədrinin Estoniyaya, Estoniya parlamenti sədrinin isə ölkəmizə səfərinin həm ikitərəfli münasibətlərin, o cümlədən parlamentlərarası əməkdaşlığın genişlənməsinə töhfə verdiyini bildirdi.

Prezident İlham Əliyev Yuri Ratasın başçılıq etdiyi nümayəndə heyətinin Şuşaya səfərinə toxunaraq bu səfərin ermənilərin həmin ərazilərdə işğal dövründə törətdikləri genişmiqyaslı dağıntıları öz gözləri ilə görmələri baxımından çox önəmli olduğunu vurğuladı.

Avropa İttifaqı-Azərbaycan əlaqələrinə toxunan dövlət başçısı Brüsselə son səfərinin nəticələrini çox müsbət qiymətləndirdi və səfər zamanı Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin bəyanatını qeyd edərək Avropa İttifaqının Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşmasında vacib rol oynadığını bildirdi. Dövlət başçısı Avropa İttifaqı ilə əlaqələrin ölkəmiz üçün önəmini qeyd edərək bu əlaqələrin çoxşaxəli olduğunu və ənənəvi enerji sahəsindən əlavə digər istiqamətləri də əhatə etdiyini dedi və qeyd etdi ki, ölkəmizdə yaradılan müasir nəqliyyat infrastrukturu və Azərbaycanın Xəzəryanı dövlətlər, eləcə də Qərb istiqaməti üzrə bağlantıları Avropa ilə Asiya arasında qarşılıqlı əlaqədə çox mühüm rol oynayacaq.

Estoniya parlamentinin Sədri Yuri Ratas, ilk növbədə 28 May - Müstəqillik Günü münasibətilə Prezident İlham Əliyevi və xalqımızı təbrik etdi, iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin qeyd olunmasının önəmini vurğuladı. Yuri Ratas Bakıya səfəri zamanı səmərəli və məhsuldar görüşlər keçirdiyini diqqətə çatdırdı.

Görüşdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

## Gürcüstanın Prezidenti zati-aliləri xanım Salome Zurabişviliyə

Hörmətli xanım Prezident.

Dost Gürcüstanın milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı yetirməkdən məmnunluq duyuram.

Azərbaycan-Gürcüstan əlaqələri çoxəsrlik dostluq, mehriban qonşuluq və qarşılıqlı dəstək kimi möhkəm təməllər üzərində qurulub. Bu il isə ikitərəfli əlaqələrimizin tarixində xüsusilə əlamətdardır - biz Azərbaycan Respublikası ilə Gürcüstan arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyini qeyd edəcəyik. Bu müddət ərzində qarşılıqlı etimada əsaslanan əməkdaşlığımızın genişlənməsi və strateji tərəfdaşlığımızın möhkəmlənməsi bizi sevindirir.

Əminəm ki, xalqlarımızın iradəsini əks etdirən dövlətlərarası münasibətlərimiz, müxtəlif sahələri əhatə edən səmərəli əməkdaşlığımız birgə səylərimizlə bundan sonra da uğurla davam edərək ölkələrimizin rifahına, regionda əmin-amanlığa və sabitliyə töhfə verəcəkdir.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, dost Gürcüstan xalqına daim firavanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 may 2022-ci il*

## "Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Latviya Respublikasının Müdafiə Nazirliyi arasında müdafiə sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2022-ci il aprelin 26-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Latviya Respublikasının Müdafiə Nazirliyi arasında müdafiə sahəsində əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Müdafiə Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Latviya Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 may 2022-ci il*

## "Fiziki şəxs olan istehlakçılar tərəfindən Azərbaycan Respublikasının ərazisində bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərdən nağdsız qaydada alınmış yaşayış və qeyri-yaşayış sahələrinə görə ödənilmiş əlavə dəyər vergisinin qaytarılması Şərtləri və Qaydası"nın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 29 noyabr tarixli 1704-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. "Fiziki şəxs olan istehlakçılar tərəfindən Azərbaycan Respublikasının ərazisində bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərdən nağdsız qaydada alınmış yaşayış və qeyri-yaşayış sahələrinə görə ödənilmiş əlavə dəyər vergisinin qaytarılması Şərtləri və Qaydası" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

2.1. bu Fərmanın 1-ci hissəsi ilə təsdiq edilmiş "Fiziki şəxs olan istehlakçılar tərəfindən Azərbaycan Respublikasının ərazisində bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərdən nağdsız qaydada alınmış yaşayış və qeyri-yaşayış sahələrinə görə ödənilmiş əlavə dəyər vergisinin qaytarılması Şərtləri və Qaydası"nın (bundan sonra - Qayda) 2.0.6-cı yarımbəndində nəzərdə tutulan müvəkkil bankı (bankları), Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının Mərkəzi Bankı ilə razılaşdırmaqla, on beş gün müddətində müəyyən etsin;

2.2. fiziki şəxs olan istehlakçılar tərəfindən Azərbaycan Respublikasının ərazisində bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərdən nağdsız qaydada alınmış yaşayış və qeyri-yaşayış sahələrinə görə ödənilmiş əlavə dəyər vergisinin qaytarılması sisteminin Azərbaycan Respublikasında tətbiqi məqsədilə Qaydada nəzərdə tutulan infrastrukturun, o cümlədən portalın, proqram təminatının və vahid elektron məlumat bazasının yaradılmasını, onun Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin və müvəkkil bankın (bankların) istifadəsində olan elektron informasiya sistemlərinə inteqrasiyasını Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin büdcədənkənar fondu hesabına təmin etsin;

2.3. vahid elektron məlumat bazasında toplanan məlumatların təhlükəsizliyini və məlumat mübadiləsinin fasiləsizliyini təmin etsin;

2.4. fiziki şəxs olan istehlakçılar tərəfindən Azərbaycan Respublikasının ərazisində bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərdən nağdsız qaydada alınmış yaşayış və qeyri-yaşayış sahələrinə görə ödənilmiş əlavə dəyər vergisinin qaytarılması sisteminin Azərbaycan Respublikasında tətbiqi ilə bağlı təbliğat işinin aparılmasını təmin etsin;

2.5. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

3.1. fiziki şəxs olan istehlakçılar tərəfindən ödənilmiş əlavə dəyər vergisinin, Qaydanın tələblərinə uyğun olaraq, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin xətti ilə dövlət büdcəsinə daxil olan əlavə dəyər vergisi üzrə faktiki mədaxilin həmin məbləğ həddində azaldılması hesabına geri qaytarılmasını təmin etsin;

3.2. Qaydanın 5.11-ci bəndində nəzərdə tutulan rəyin formasını, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə razılaşdırmaqla, on beş gün müddətində təsdiq etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 may 2022-ci il*

*Fərmana edilmiş əlavə ilə www.azerbaijan-news.az saytında tanış ola bilərsiniz.*

## "Azərbaycan Respublikasının dövlət büdcəsinin tərkibində "Avtomobil yolları" Məqsədli Büdcə Fondunun yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 12 oktyabr tarixli 1729 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Respublikasının dövlət büdcəsinin tərkibində "Avtomobil yolları" Məqsədli Büdcə Fondunun yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 12 oktyabr tarixli 1729 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 10, maddə 870; 2014, № 12, maddə 1630; 2016, № 7, maddə 1315; 2018, № 8, maddə 1678; 2019, № 11, maddə 1699) 2.6-cı bəndindən "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun 4.1-4-cü maddəsi nəzərə alınmaqla," sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 may 2022-ci il*

## Prezident İlham Əliyevin göstərişinə əsasən bölgələrdə vətəndaşların qəbulu keçirilir

Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov mayın 24-25-də Quba Rayon Polis Şöbəsində növbəti qəbul keçirib. Quba, Qusar, Şabran, Siyəzən, Xızı, Xaçmaz rayonlarından gələn 72 vətəndaşı qəbul edən nazir onların müraciətlərini dinləyib, problemlərinin həlli üçün nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib.

Müraciətlərin əksəriyyəti yerində həllini tapıb.

Qəbula gələn vətəndaşlar onlara göstərilən diqqət və qayğıya, dövlət qurumlarının rəhbərləri tərəfindən ərizə və müraciətlərinə operativ yanaşılmasına görə Azərbaycan Prezidentinə minnətdarlıq ediblər.

❖ ❖ ❖

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin (AQUPDK) sədri Bahar Muradova mayın 25-də Saatlıda vətəndaşlarla görüşüb.

Heydər Əliyev Mərkəzində keçirilən qəbulda Saatlı ilə yanaşı, İmişli və Sabirabad rayonlarından olan sakinlər də iştirak ediblər. Görüş zamanı hər bir vətəndaşın müraciət və istəyi diqqətlə dinlənilib. Qəbula gələn vətəndaşlar tərəfindən əsasən uşaqla ünsiyyət, məişət zorakılığı, məşğulluq, əlilliyin təyin olunması və sair barədə müraciətlər olunub.

Müraciətlərin bir qismi yerindəcə həll edilib. Araşdırılmağa ehtiyacı olan bir sıra müraciətlər isə qeydiyyata alınıb və onların operativ həlli üçün konkret tapşırıqlar verilib. Komitənin səlahiyyətlərinə aid olmayan bəzi müraciətlər müvafiq qurumlara çatdırılmaq üçün qeydiyyata alınıb.

Qəbula gələn vətəndaşlar onlar üçün yaradılan şəraitə və göstərilən diqqətə görə razılıqlarını bildiriblər.

***AZƏRTAC***

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə



Zati-aliləri.

Milli bayramınız - Müstəqillik Günü münasibətilə Sizə və Azərbaycan xalqına təbriklərimi və xoş arzularımı çatdırıram.

Ümidvarıq ki, qlobal sağlamlıq problemlərini qətiyyət və mətanətlə birgə dəf edərək gələcəkdə daha yaxşı günlər yaşayacağıq.

*Dərin hörmətlə,*

***Ülyahəzrət II ELİZABET,***
***Böyük Britaniya və Şimali İrlandiyanın Kraliçası***

❖ ❖ ❖

Cənab Prezident.

Azərbaycanın milli bayramı - Müstəqillik Günü münasibətilə Zati-alinizə şəxsən öz adımdan, İspaniya hökuməti və xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

Cənab Prezident, Sizə möhkəm cansağlığı, dost Azərbaycan xalqına sülh və əmin-amanlıq arzulayıram.

*Dərin hörmət və ehtiramla,*

***VI FELİPE,***
***İspaniyanın Kralı***

❖ ❖ ❖

Zati-aliləri.

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və Azərbaycan Respublikasının vətəndaşlarına səmimi təbriklərimi çatdırıram.

Diplomatik münasibətlərimizin qurulmasından ötən 30 il ərzində ölkələrimiz müxtəlif sahələrdə dostluğa əsaslanan tərəfdaşlıq münasibətləri qurmuşdur. Ölkələrimiz və xalqlarımız arasında əlaqələrin daha da inkişaf etdiriləcəyinə, mövcud dostluğun daha da möhkəmləndiriləcəyinə əminəm.

Bu xoş fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı və gələcək işlərinizdə uğurlar, Azərbaycan Respublikasına daimi firavanlıq arzu edirəm.

*Hörmətlə,*

***Yun Sok YOL,***
***Koreya Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri, əziz qardaşım.

Qardaş Azərbaycanın milli bayramı - Müstəqillik Günü münasibətilə Əlcəzair xalqı və hökuməti adından, şəxsən öz adımdan Zati-alinizə ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram. Uca Tanrıdan Sizə möhkəm cansağlığı və xoşbəxtlik, qardaş Azərbaycan xalqına isə Sizin müdrik rəhbərliyinizlə təhlükəsizlik və sabitlik yolunda daha böyük tərəqqi və firavanlıq diləyirəm.

Bu xoş fürsətdən istifadə edərək ölkələrimizi bir-birinə bağlayan möhkəm dostluq və həmrəylik tellərindən məmnunluğumu ifadə edir, müxtəlif sahələrdə əməkdaşlığımızı dəstəkləməyə, qarşılıqlı maraqlarımıza xidmət edən əlaqələrimizi qardaş xalqlarımızın mənafeyi naminə inkişaf etdirməyə hazır olduğumu bildirirəm.

Həmçinin ümumi maraqlar, dünyada sülhü və təhlükəsizliyi möhkəmləndirə biləcək digər məsələlərlə bağlı məsləhətləşmələrimizi beynəlxalq platformalarda, o cümlədən hazırda sədrliyini layiqincə yerinə yetirdiyiniz Qoşulmama Hərəkatında davam etdirməyə hazır olduğumu bir daha vurğulamaq istəyirəm.

Zati-aliləri cənab Prezident, əziz qardaşım, ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Abdelmacid TEBBUN,***
***Əlcəzair Xalq Demokratik Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Milli bayramınız - Müstəqillik Günü münasibətilə Fələstin Dövləti və xalqı adından, şəxsən öz adımdan Sizə, Sizin şəxsinizdə hökumətinizə və qardaş Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, uğurlar diləyir, Azərbaycana və onun xalqına daha böyük tərəqqi, həmrəylik və qarşılıqlı hörmətə əsaslanan ikitərəfli əlaqələrimizin inkişaf etməsini arzulayıram.

Xahiş edirəm, ən xoş arzularımı qəbul edin.

*Hörmətlə,*

***Mahmud ABBAS,***
***Fələstin Dövlətinin Prezidenti, Fələstin Azadlıq Təşkilatı İcraiyyə Komitəsinin sədri***

❖ ❖ ❖

Zati-aliləri.

Milli bayramınız - Müstəqillik Günü münasibətilə Sizi, ailənizi, Zati-alinizin simasında Azərbaycan xalqını və dövlətini Sudan hökuməti və xalqı adından, şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Bu xoş fürsətdən istifadə edərək, ölkələrimiz və xalqlarımız arasında mövcud olan ikitərəfli əlaqələrdən məmnunluq hissi duyduğumu bildirərək, aramızdakı dostluq və qardaşlıq münasibətlərinin getdikcə daha da möhkəmlənəcəyinə əminliyimi bildirirəm.

Zati-aliləri, xahiş edirəm, ən yüksək hörmət və ehtiramımı qəbul edin.

*Hörmətlə,*

***Abdel Fattah Abdelrahman AL-BURHAN,***
***Sudan Respublikasının Suveren Keçid Şurasının sədri***

❖ ❖ ❖

Zati-aliləri.

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Zati-alinizə və Azərbaycan xalqına şəxsən öz adımdan və Kraliça adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Əminik ki, Sizin müdrik rəhbərliyinizlə Azərbaycan Respublikası daha güclü iqtisadi tərəqqiyə nail olacaqdır.

Məmnuniyyətlə qeyd edirik ki, Malayziya ilə Azərbaycan arasında səmimi münasibətlər bundan sonra da davam edəcəkdir. Ölkələrimiz arasındakı çoxşaxəli əməkdaşlığın xalqlarımızın rifahı naminə daha da möhkəmlənməsini arzu edirik.

Allah-Taala Zati-alinizə möhkəm cansağlığı, Azərbaycan Respublikasına, onun xalqına sülh və firavanlıq bəxş etsin.

*Hörmətlə,*

***Əlahəzrət əl-Sultan Abdullah Riayatuddin əl-Mustafa Billah Şah ibni əl-Mərhum Sultan Hacı Əhməd Şah əl-Mustain BİLLAH,***
***Malayziyanın Kralı***

❖ ❖ ❖

Möhtərəm İlham Heydər oğlu.

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə səmimi təbriklərimi qəbul edin.

Azərbaycan dövlət müstəqilliyi illərində dünya birliyinin tamhüquqlu üzvünə çevrilib, beynəlxalq aləmdə böyük nüfuz qazanıb.

Bu gün Azərbaycan Sizin rəhbərliyinizlə ölkədə siyasi və sosial-iqtisadi sabitliyin möhkəmlənməsinə istiqamətlənmiş kompleks dövlət islahatları yolu ilə inamla irəliləyir.

Əminəm ki, Sizin çoxşaxəli fəaliyyətiniz bundan sonra da Azərbaycan Respublikasının inkişafına və onun xalqının rifahının yaxşılaşmasına xidmət edəcək, Müstəqil Dövlətlər Birliyi çərçivəsində səmərəli əməkdaşlığımız isə gələcəkdə daha da möhkəmlənəcək və genişlənəcəkdir.

Möhtərəm İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı və firavanlıq, bütün Azərbaycan xalqına isə sülh və tərəqqi arzulayıram.

*Dərin hörmətlə,*

***Sergey LEBEDEV,***
***MDB İcraiyyə Komitəsinin sədri - icraçı katibi***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

Milli bayramınız - Müstəqillik Günü münasibətilə "VTB Bank"ın İdarə Heyətinin kollektivi adından və şəxsən öz adımdan səmimi təbriklərimi qəbul edin.

Bu gün Azərbaycan Sizin rəhbərliyinizlə beynəlxalq nüfuzunu möhkəmləndirərək hərtərəfli inkişaf yolu ilə inamla irəliləyir.

Düz 30 il bundan əvvəl Rusiya ilə Azərbaycan arasında diplomatik münasibətlər qurulub. Ötən dövr ərzində ölkələrimiz ikitərəfli tərəfdaşlıqdan müttəfiqlik fəaliyyətinədək uzun yol qət edib.

Rusiyada Azərbaycan Respublikası ilə tarixi dostluq əlaqələrini yüksək qiymətləndirirlər. Bu gün dövlətlərimizin mehriban qonşuluğu dəstəkləmək və Rusiya-Azərbaycan əməkdaşlığının potensialını artırmaq istəyi həmişəkindən daha vacibdir.

"VTB Bank"ın Azərbaycanda məhsuldar fəaliyyəti, Azərbaycan Dövlət Neft Fondunun "VTB Bank"ın kapitalında iştirakı iki ölkənin qarşılıqlı fəaliyyətinin möhkəmliyini və strateji xarakterini əyani şəkildə göstərir.

Hörmətli İlham Heydər oğlu, Zati-alinizə məsul vəzifənizdə yeni-yeni uğurlar, Sizə və bütün Azərbaycan xalqına möhkəm cansağlığı, xoşbəxtlik, firavanlıq və əmin-amanlıq arzulayıram.

*Hörmətlə,*

***Andrey KOSTİN,***
***"VTB Bank" Publik Səhmdar Cəmiyyətinin prezidenti, İdarə Heyətinin sədri***

# Türk dövlətlərinin qurumları arasında əməkdaşlığın həyata keçirilməsi dövlətlərarası münasibətlərə də öz töhfəsini verir



**Mayın 25-də Milli Məclisin Sədri Sahibə Qafarova "TÜRKPA-ya üzv dövlətlərdə İnsan hüquqlarının qorunması" mövzusuna həsr edilmiş konfransın iştirakçıları ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, parlamentin Sədri qonaqları salamlayaraq ümidvar olduğunu bildirib ki, Milli Məclisdə təşkil edilmiş tədbirdə faydalı müzakirələr aparılacaq, tədbir uğurla başa çatacaq.

Bildirilib ki, Milli Məclislə TÜRKPA arasında parlament diplomatiyası və model qanunların hazırlanması sahələrində faydalı əməkdaşlıq mövcuddur. Bugünkü konfrans Azərbaycanda İnsan Hüquqları üzrə Müvəkkil təsisatının (Ombudsmanın) yaradılmasının 20 illiyinə həsr olunub. Bu yaxınlarda Türkiyənin Bursa şəhərində "Türk Dövlətlərinin Ombudsmanlar və Milli İnsan Hüquqları İnstitutları Assosiasiyası"nın yaradılması barədə Anlaşma Memorandumu imzalandıqdan sonra ombudsmanlar Bakıda yenidən bir araya gəliblər. Parlamentin spikeri bildirib ki, türk dövlətlərinin qurumları arasında əməkdaşlığın həyata keçirilməsi dövlətlərarası münasibətlərə də öz töhfəsini verir.

Sahibə Qafarova Milli Məclisin İnsan hüquqları komitəsi ilə birgə keçirilən bu tədbirin əhəmiyyətindən danışaraq qeyd edib ki, Türk dünyası Ombudsmanlarının Bakıdakı toplantısı özlüyündə dünyaya verilən bir mesajdır. Bu, türk dövlətlərinin insan hüquqlarının və azadlıqlarının qorunması işinə verdiyi böyük önəmin təzahürüdür.

Milli Məclisin Sədri konfrans iştirakçılarının Azərbaycanın mədəniyyət paytaxtı Şuşaya səfəri barədə danışarkən deyib ki, qonaqlar işğal olunmuş ərazilərdə olarkən Ermənistan tərəfindən yaşayış məntəqələrinin, tarixi və mədəniyyət abidələrinin məhv edildiyinin şahidi olub. İşğalın davam etdiyi 30 il müddətində bu ərazilərdə hər şey dağıdılıb, dini, mədəni, tarixi abidələr vandalizmə məruz qalıb. İndi Azərbaycan hökuməti tərəfindən bu ərazilərdə genişmiqyaslı infrastruktur və quruculuq işləri həyata keçirilir. Məqsəd məcburi köçkünlərin öz doğma yurdlarına qayıtması, onların pozulmuş konstitusion hüquqlarının bərpa edilməsidir.

Bildirilib ki, 44 günlük Vətən müharibəsi zamanı cəbhə xəttindən uzaqda yerləşən şəhər və rayonlarımız, mülki infrastruktur obyektləri də atəşə məruz qalıb. Yaşayış və qeyri-yaşayış sahələrinə ciddi ziyan vurulub, mülki əhali bu hərbi təcavüzdən əziyyət çəkib. Birinci və İkinci Qarabağ müharibəsi dövründə Ermənistanın törətdiyi cinayətlər Azərbaycanın müvafiq qurumları tərəfindən rəsmiləşdirilib, müvafiq hesabat və bəyanatlar qəbul olunub. Türk Dövlətlərinin Ombudsmanlar və Milli İnsan Hüquqları İnstitutları Assosiasiyası çərçivəsində işğaldan azad edilmiş ərazilərə faktaraşdırıcı missiyanın təşkil edilməsi Ermənistanın törətdiyi insan hüquq pozuntularına obyektiv qiymət verilməsinə töhfə verər.

Parlamentin Sədri belə bir inam ifadə edib ki, Bakıda keçirilən konfrans çərçivəsində Türk Dövlətləri Ombudsmanları tərəfindən aparılacaq fikir mübadiləsi, veriləcək təkliflər türk dünyasında insan hüquqlarının müdafiəsi işində faydalı olacaq.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva konfransın Milli Məclisdə keçirilməsinə yaratdığı şəraitə görə Milli Məclisin Sədri Sahibə Qafarovaya minnətdarlığını bildirib. Qeyd edilib ki, konfransın keçirilməsində məqsəd TÜRKPA-ya üzv dövlətlərdə insan hüquqlarının qorunması sahəsində əməkdaşlıq, təcrübə və informasiya mübadiləsi aparmaqdır.

Bildirilib ki, tədbir çərçivəsində konfrans iştirakçılarının Şuşa şəhərində olması, işğaldan azad edilmiş ərazilərə baş çəkmələri onlarda güclü təəssürat oyadıb. Bu ərazilərdə ermənilərin törətdikləri dağıntılar və vandalizm hərəkətləri barədə müvafiq hesabatlar hazırlanaraq nüfuzlu beynəlxalq qurumlara təqdim edilib və gələcəkdə də bu fəaliyyətin davam etdirilməsi nəzərdə tutulub.

Sonra tədbirdə iştirak edən TÜRKPA-ya üzv dövlətlərin millət vəkilləri, ombudsmanlar ölkəmizə səfərləri və keçirilən tədbirlər barədə fikirlərini bölüşüblər.

Görüşdə Türkiyə Respublikasının baş ombudsmanı Şeref Malkoç, Qazaxıstan Respublikasının ombudsmanı Elvira Azimova, Qırğız Respublikasının ombudsmanı Atır Abdrahmatova, Türkiyə İnsan Hüquqları Bərabərlik Qurumunun sədri Muharrem Kılıç, Özbəkistan Respublikasının ombudsmanı Feruza Eşmatova, TÜRKPA-nın Baş katibi Mehmet Süreyya Er, Türkiyə, Qazaxıstan, Qırğız respublikalarının deputatları , Milli Məclis Aparatının rəhbəri Fərid Hacıyev və digər rəsmi şəxslər iştirak ediblər.

*"Azərbaycan"*

# Azərbaycanla Kanada arasında ikitərəfli münasibətlərin daha da gücləndirilməsi üçün geniş potensial var



Mayın 25-də Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Kanada Parlamenti İcmalar Palatasının Azərbaycanla dostluq qrupunun rəhbəri Filip Lourensin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonaqları Milli Məclisdə salamlamaqdan məmnunluğunu bildirən spiker Sahibə Qafarova Kanada parlamentində Azərbaycanla dostluq qrupunun fəaliyyətini müsbət qiymətləndirib, eyni zamanda dostluq qrupunun Kanadadakı Azərbaycan diasporu ilə əməkdaşlığını təqdirəlayiq hesab edib. Diqqətə çatdırıb ki, bu səfər Kanada-Azərbaycan parlamentlərarası münasibətləri inkişaf etdirmək səylərinin bariz nümunəsidir. Milli Məclisin Sədri parlamentlərarası dostluq qruplarının mühüm rolundan danışaraq qeyd edib ki, parlamentlərarası münasibətlər ölkələr arasında ikitərəfli və çoxtərəfli əlaqələrin ən mühüm tərkib hissələrindən biridir.

Milli Məclisin Sədri bir neçə aydan sonra iki ölkə arasında diplomatik münasibətlərin yaradılmasının 30 illiyinin qeyd olunacağını bildirərək ölkələr arasında müxtəlif sahələrdə ikitərəfli münasibətlərin daha da gücləndirilməsi üçün geniş potensialın olduğunu qeyd edib.

Spiker Sahibə Qafarova qonaqlara Azərbaycanın 44 günlük Vətən müharibəsində öz ərazilərini Ermənistanın işğalından azad etməsi barədə məlumat verib. Milli Məclisin Sədri 30 illik işğal dövründə Ermənistanın törətdiyi dağıntılar haqqında danışıb və qonaqların Ağdama səfərləri zamanı bunun canlı şahidi olduqlarını qeyd edib. Bildirilib ki, artıq münaqişə tarixə qovuşub. İndi sülh və sabitlik haqqında danışmaq lazımdır.

Spiker Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin təşəbbüsü ilə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında keçirilən görüşlər haqqında məlumat verərək tezliklə iki ölkə arasındakı danışıqların sülh müqaviləsinin imzalanması ilə nəticələnəcəyinə inamını ifadə edib. Sahibə Qafarova qeyd edib ki, işğaldan azad olunmuş ərazilərimizdə ən böyük problem onların Ermənistan tərəfindən minalanmasıdır. 10 noyabr 2020-ci il tarixindən etibarən 210-dan çox mülki və hərbi vətəndaşımız mina partlayışları nəticəsində həlak olub və yaralanıb. Azərbaycan dünyanın ən çox minalanmış ölkələrindən olsa da, onların təmizlənməsi üçün ən az beynəlxalq dəstək alan ölkələrdəndir.

Qonaqpərvərliyə görə minnətdarlığını ifadə edən Kanada Parlamenti İcmalar Palatasının Azərbaycanla dostluq qrupunun rəhbəri Filip Lourens münasibətlərin müxtəlif istiqamətlərdə inkişafı perspektivlərindən danışıb. O, parlamentlərarası əlaqələrin daha da inkişafının hər iki tərəf üçün faydalı olacağına əminliyini bildirib, ölkəmizə səfəri çərçivəsində keçirdiyi görüşlərin əhəmiyyətini qeyd edib. Qonaq Ağdama səfərləri çərçivəsində ərazilərin minalardan təmizlənməsi prosesi ilə yaxından tanış olduqlarını diqqətə çatdırıb. O, tezliklə Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin imzalanacağına və regionda davamlı sülh və sabitliyin bərqərar olacağına inandığını söyləyib.

Söhbətdə qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə olunub.

Görüşdə Azərbaycan-Kanada parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Tural Gəncəliyev və digər rəsmi şəxslər iştirak ediblər.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# TÜRKPA-ya üzv dövlətlərin ombudsmanları Ulu Öndərin məzarını və Şəhidlər xiyabanını ziyarət ediblər

Azərbaycanda Ombudsman təsisatının yaradılmasının 20 illiyi münasibətilə keçirilən beynəlxalq konfransda iştirak etmək məqsədilə ölkəmizə səfərə gələn TÜRKPA-ya üzv dövlətlərin - Türkiyə, Qırğızıstan, Qazaxıstan və Özbəkistanın ombudsmanları və milli insan hüquqları təsisatlarının rəhbərləri, parlament nümayəndələri mayın 25-də Fəxri xiyabanı və Şəhidlər xiyabanını ziyarət ediblər.

AZƏRTAC xəbər verir ki, konfrans iştirakçıları əvvəlcə Fəxri xiyabanda xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə tər güllər düzüb, əklil qoyublar.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi ehtiramla anılıb, məzarı üzərinə çiçəklər qoyulub.

Sonra görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim-alim Tamerlan Əliyevin məzarları üzərinə gül dəstələri düzülüb. Daha sonra Şəhidlər xiyabanına gələn nümayəndə heyətinin üzvləri Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının məzarları üzərinə tər güllər qoyub, "Əbədi məşəl" abidəsini ziyarət ediblər.

Bakının ən hündür nöqtəsindən paytaxtımızın mənzərəsini seyr edən qonaqlara Şəhidlər xiyabanının tarixi və şəhərdə görülən abadlıq-quruculuq işləri barədə məlumat verilib.

Sonda Şəhidlər xiyabanında qəhrəman türk əsgərlərinin xatirəsinə ucaldılmış "Türk şəhidliyi" abidəsi ziyarət edilib, şəhidlərin məzarları önünə tər qərənfillər düzülüb.

# Milli Məclisdə insan hüquqlarının qorunması ilə bağlı beynəlxalq konfrans keçirilib

Mayın 25-də Milli Məclisdə "TÜRKPA-ya üzv dövlətlərdə insan hüquqlarının qorunması" mövzusunda beynəlxalq konfrans keçirilib.

Milli Məclis, TÜRKPA və Ombudsman təsisatının birgə əməkdaşlığı çərçivəsində baş tutan konfrans Azərbaycan Respublikasının İnsan hüquqlari üzrə müvəkkili (ombudsman) təsisatının yaradılmasının 20 illiyinə həsr edilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, əvvəlcə Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Orucun moderatorluğu ilə açılış sessiyası olub. O, iştirakçıları Milli Məclisin Sədri Sahibə Qafarovanın adından salamlayıb və tədbirin işinə uğurlar diləyib.

Zahid Oruc 44 günlük Vətən müharibəsində qazanılan qələbədən sonra türk dövlətlərinin parlament təmsilçilərinin və ombudsmanlarının bir araya gəlməsini yalnız türk coğrafiyası üçün deyil, dünya miqyasında insan hüquq və azadlıqlarının qorunması üçün mühüm əhəmiyyət kəsb etdiyini bildirib. Vurğulayıb ki, insanların ən böyük haqqı olan doğma torpaqlarında yaşamaq, yaratmaq hüququnun gerçəkləşməsinə xidmət edən zəfərdən sonra həm tarixi ədalət bərqərar olub, həm də regionda yeni sülh arxitekturası qurulur. "İnsan hüquqları" anlayışının tarixinə toxunan komitə sədri türk dünyasında formalaşan insan haqları fəlsəfəsindən bəhs edib.

Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğanın imzaladığı Şuşa Bəyannaməsini türk dünyasını birləşdirən təhlükəsizlik platforması kimi xarakterizə edən Zahid Oruc onun insanlar arasında sülhə, birgəyaşayışa və anlaşmaya xidmət etdiyini bildirib, TÜRKPA-ya üzv dövlətlərdə insan hüquqlarının müdafiəsi ilə bağlı tezisləri səsləndirib.

TÜRKPA-nın baş katibi Mehmet Süreyya Er də açılış nitqi söyləyərək insan hüquqlarının qorunmasını daim aktual və təkmilləşən bir mövzu kimi xarakterizə edib, insan hüquqlarının qorunmasının institusional əsaslarının formalaşması və təkmilləşməsi tarixinə toxunub. Baş katib TÜRKPA-ya üzv dövlətlərdə insan hüquq və azadlıqlarının təmin edilməsinin prioritet kimi qəbul olunmasından, bu sahədə beynəlxalq öhdəliklərin vicdanla yerinə yetirilməsindən və milli qanunvericiliyin təkmilləşdirilməsindən danışıb, insan hüquqlarının qorunmasında milli parlamentlərin və ombudsman institutlarının rolunu vurğulayıb.

Azərbaycanın insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva iştirakçıları salamlayaraq Azərbaycanda Ombudsman təsisatının yaradılmasının əsasları, statusu və əsas fəaliyyət istiqamətlərindən danışıb. Səbinə Əliyeva insan hüquqlarının müdafiəsi, eləcə də bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı parlamentlə əməkdaşlığın əhəmiyyətinə toxunub, bu sahədəki təcrübələrini bölüşüb.



Ombudsman çıxışında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyinin artırılması yolunda TÜRKPA-ya üzv dövlətlərin parlamentləri və milli insan hüquqları institutları qarşısında dayanan çağırışlardan bəhs edib, bu kontekstdə 2022-ci il mayın 13-də Türk Dövlətlərinin Ombudsmanlar və Milli İnsan Hüquqları İnstitutları Assosiasiyasının yaradılmasının əhəmiyyətini vurğulayıb.

TÜRKPA-nın Hüquq məsələləri və beynəlxalq əlaqələr komissiyasının sədri Erol Kaya çıxışında müzakirə edilən mövzunun əhəmiyyətini qeyd edib, Türkiyədə insan hüquqlarının qorunmasının konstitusion əsasları, hüquqi bazası, bu sahədə qurumların səlahiyyətləri, son 20 ildə aparılan tənzimləmələr və qanunvericilikdəki təkmilləşdirmələr, Türkiyə parlamentinin bu sahədə gördüyü işlər, həyata keçirilən nəzarət fəaliyyəti haqqında məlumat verib, fikirlərini bölüşüb.

Sonra konfrans işini sessiyalarda davam etdirib.

❖ ❖ ❖

Konfransın "İnsan hüquqlarının qorunmasında parlamentlərin rolu" mövzusunda birinci sessiyası TÜRKPA-nın Hüquq məsələləri və beynəlxalq əlaqələr komissiyasının sədri Erol Kayanın moderatorluğu ilə keçib.

Sessiyada Milli Məclisin deputatları və TÜRKPA-da Azərbaycan nümayəndə heyətinin üzvləri - Məlahət İbrahimqızı və Cavanşir Feyziyev, TÜRKPA-ya üzv ölkələrin parlamentariləri - Berik Düsembinov (Qazaxıstan Respublikası Parlamenti Məclisi), Tazabek İkramov (Qırğız Respublikası Joqorku Keneşi), Yüksel Özkan (Türkiyə Böyük Millət Məclisi) çıxış ediblər. Qonaqlar göstərilən yüksək qonaqpərvərliyə görə təşəkkür ediblər, Şuşaya səfərləri ilə bağlı təəssüratlarını bölüşüblər.

Çıxış edənlər 44 günlük Vətən müharibəsində qazanılan zəfəri tarixi ədalət və insan hüquqlarının bərpası kontekstində dəyərləndiriblər, öz ölkələrində insan hüquqlarının qorunması ilə bağlı mövcud vəziyyət, qanunvericilik bazası, aparılan islahatlar haqqında məlumat veriblər.

Sessiyaya yekun vuran Erol Kaya TÜRKPA coğrafiyasında insan hüquqlarının qorunması sahəsində belə toplantıların keçirilməsinin informasiya və təcrübə mübadiləsi baxımından əhəmiyyətli olduğunu vurğulayıb.

❖ ❖ ❖

Konfransın "Ombudsman institutlarının səmərəli fəaliyyətində qanunvericiliyin təkmilləşdirilməsinin əhəmiyyəti" mövzusunda ikinci sessiyasına Azərbaycanın insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva moderatorluq edib.

Sessiyada Türkiyə İnsan Hüquqları və Bərabərlik Qurumunun sədri Muharrem Kılıç, ombudsmanlar Elvira Azimova (Qazaxıstan), Atır Abdrahmatova (Qırğızıstan), Şeref Malkoç (Türkiyənin baş Ombudsmanı), Feruza Eşmatova (Özbəkistan) çıxış ediblər. Onlar ölkələrində insan hüquqlarının müdafiəsi ilə bağlı görülən işlər barədə məlumat veriblər, mövzu ilə bağlı fikirlərini bildiriblər, bu sahədə birgə əməkdaşlığın əhəmiyyətini vurğulayıblar.

Sonra Ombudsman Aparatı tərəfindən informasiya əldə etmək hüququnun təmini ilə bağlı videoçarx nümayiş olunub.

Ombudsman Səbinə Əliyeva və TÜRKPA-nın komissiya sədri Erol Kaya sessiyaya yekun vuraraq faydalı müzakirələrə görə tədbir iştirakçılarına təşəkkür ediblər. Belə bir fikir ifadə olunub ki, türk dövlətlərinin Ombudsman təsisatlarının birgə səyləri, qarşılıqlı bilik, təcrübə və fikir mübadiləsi insan hüquqlarının daha səmərəli müdafiəsi işinə mühüm töhfələr verəcək.

Bununla da "TÜRKPA-ya üzv dövlətlərdə insan hüquqlarının qorunması" mövzusunda beynəlxalq konfrans başa çatıb.

*"Azərbaycan"*

# Prezident Administrasiyasında Gələcək Azərbaycan Partiyasının sədri ilə görüş keçirilib

**Mayın 25-də Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev ilə Gələcək Azərbaycan Partiyasının sədri Ağasif Şakiroğlu arasında görüş keçirilib.**

Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə şöbə müdiri ölkəmizdə siyasi dialoq mədəniyyətinin və cəmiyyətin inkişafı naminə həyata keçirilən iqtidar-müxalifət əməkdaşlığının keçmişi, bu günü və perspektivlərindən söz açıb, siyasi tariximizin zənginləşməsində, dövlətçiliyimizin möhkəmlənməsində siyasi partiyaların rolunun önəmli olduğu, Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan siyasi islahatlar nəticəsində siyasi partiyaların fəaliyyəti üçün geniş zəmin yaradıldığı, həmçinin siyasi partiyaların qərargahla təmin olunması, qurultaylarının nəticələrinin dövlət qeydiyyatına alınması, fəaliyyətlərinin legitimləşdirilməsi, ölkədə fəaliyyət göstərən dövlət və özəl media resurslarına maneəsiz çıxış imkanlarının yaradılması, ölkədə milli və siyasi həmrəyliyin təmin olunması, yeni siyasi partiyaların dövlət qeydiyyatına alınması və digər məsələlər yeni siyasi konfiqurasiyanın əsas konturları kimi qeyd olunub. Şöbə müdiri həmçinin əksər siyasi partiyaların sağlam iqtidar-müxalifət dialoqunun və çoxpartiyalı siyasi sistemin inkişafına öz töhfəsini verdiklərini qeyd edib.

Prezident İlham Əliyevin "indiki genişmiqyaslı islahatlar dövründə siyasi islahatlar mütləq aparılmalıdır. Siyasi islahatlar partiyalararası geniş dialoq olmadan həyata keçirilə bilməz...Azərbaycanın yeni siyasi konfiqurasiyası formalaşır" fikirlərinin real nəticələr verdiyinə diqqət çəkən Ədalət Vəliyev bu prosesdə Gələcək Azərbaycan Partiyasının fəal iştirak edəcəyinə əminliyini bildirib.

Gələcək Azərbaycan Partiyasının sədri Ağasif Şakiroğlu öz növbəsində ölkəmizdə aparılan siyasi dialoqu və dialoq çərçivəsində görülmüş işləri yüksək qiymətləndirib, ölkəmizin rifahını və dövlətimizin güclənməsini istəməyən azsaylı radikal şəxslərin arzuolunmaz fəaliyyətindən bəhs edib. Uğurlu xarici siyasət nəticəsində Azərbaycanın dünyanın ən fərqli geosiyasi qütbləri ilə münasibətlərini qoruduğu, beynəlxalq güc mərkəzlərindən gələn təzyiqləri neytrallaşdırdığı və bütün bunların nəticəsində sabitliyin hökm sürdüyü əməkdaşlıq məkanına çevrildiyi qeyd olunub. Bildirilib ki, bu gün ölkəmizdə siyasi baxışlarından asılı olmayaraq dövlətimizin güclənməsini, xalqımızın sosial rifahının daha da yaxşılaşmasını istəyən hər bir vətənpərvər şəxs Azərbaycanın uğurlarına sevinməli, bu uğurların davamlı olması üçün özü də əlindən gələni əsirgəməməlidir. Bu işdə Gələcək Azərbaycan Partiyası da öz köməyini göstərməyə daim hazırdır.

Sonda tərəflər konstruktiv əməkdaşlığın əhəmiyyətini nəzərə alaraq, bu işi sistemli şəkildə davam etdirmək barədə fikir mübadiləsi aparıblar. Mayın 22-də Brüsseldə Azərbaycan və Ermənistan rəhbərləri arasında keçirilmiş görüş yüksək qiymətləndirilib, iki ölkə arasında sərhədin delimitasiyası üzrə Dövlət Komissiyasının yaradılmasının regionda sülhün və təhlükəsizliyin təmin olunmasında vacib rol oynayacağı bildirilib.

# Azərbaycanın xarici işlər naziri Estoniya parlamentinin sədri ilə görüşüb

Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov mayın 25-də Estoniya Respublikası parlamentinin Sədri Yuri Ratasın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, qonaqları salamlayan Ceyhun Bayramov Azərbaycanın dost Estoniya ilə münasibətlərin inkişafına böyük önəm verdiyini vurğulayıb. Ölkələrimiz arasında son zamanlar intensiv dialoqun həyata keçirildiyi, o cümlədən parlament səviyyəsində qarşılıqlı səfərlərin həyata keçirildiyi məmnunluqla qeyd edilib. Nazir cari ildə iki ölkə arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyinin tamam olduğunu, bu müddətdə əlaqələrin inkişafında bir sıra uğurlara imza atıldığını vurğulayıb və gələcəkdə əməkdaşlığın daha da inkişafında maraqlı olduğumuzu diqqətə çatdırıb.

Estoniya parlamentinin Sədri Yuri Ratas ölkəmizə səfərinin çox məhsuldar olduğunu qeyd edib, Azərbaycan dövlətinin başçısı ilə keçirilən görüşü, Şuşa şəhərinə səfərini məmnunluqla xatırladıb. O, iki ölkə arasında tarixi bağların olduğunu vurğulayaraq Azərbaycan xalqını 28 May - Müstəqillik Günü münasibətilə təbrik edib.

Görüşdə iki ölkə arasında bir sıra sahələrdə, o cümlədən iqtisadi, informasiya texnologiyaları, ətraf mühit, humanitar və digər istiqamətlər üzrə əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparılıb. Xüsusilə informasiya texnologiyaları, təhsil, alternativ enerji sahələrində əməkdaşlığın inkişafı potensialının olduğu vurğulanıb.

Nazir Ceyhun Bayramov Estoniya parlamentinin Sədrinə bölgədə mövcud münaqişə sonrası vəziyyət, azad olunmuş ərazilərin minalardan təmizlənməsi, geniş bərpa və quruculuq işləri, Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması istiqamətində atılan addımlar, o cümlədən Brüsseldə liderlər arasında baş tutan görüş barədə məlumat verib.

Yuri Ratas Estoniyanın hər zaman Azərbaycanın ərazi bütövlüyünə dəstək verdiyini qeyd edib və ölkəsinin bölgədə sülhün təmin edilməsinin tərəfdarı olduğunu vurğulayıb.

Söhbət zamanı həmçinin Azərbaycanın Avropa İttifaqı ilə münasibətləri, regional məsələlər, o cümlədən Ukraynadakı vəziyyət və qarşılıqlı maraq doğuran digər mövzular müzakirə olunub.

# Ötən il ölkə iqtisadiyyatının inkişafı dövlət büdcəsinin icrasına öz müsbət təsirini göstərib

Mayın 25-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin növbəti iclası keçirilib. Komitə sədri Tahir Mirkişili gündəliyə bir məsələnin - "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsinin birinci oxunuşda daxil edildiyini söyləyib.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitə sədri diqqətə çatdırıb ki, "Büdcə sistemi haqqında" qanunun 20.2-1-ci maddəsinə əsasən "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsi və bununla bağlı hazırlanmış hesabat ölkə Prezidenti tərəfindən Milli Məclisə daxil olub. Qeyd olunub ki, 2021-ci il bütün dünya və Azərbaycan üçün postpandemiya dövrü kimi məhdudiyyətlərin yumşaldılması, ümumi daxili məhsulun qlobal dünya üzrə artımına rəvac verib. İqtisadi artımın yüksəlməsi bütün dünya ölkələrində, həmçinin Azərbaycanda öz əksini tapıb.

Bildirilib ki, 2020-ci ildə Ali Baş Komandan İlham Əliyevin başçılığı ilə Vətən müharibəsində əldə edilmiş möhtəşəm zəfərdən sonra 2021-ci ilin büdcəsi qələbə ilinin büdcəsi kimi yadda qalıb. Ötən ilin büdcəsinin xərclərində müharibə fəsadlarının aradan qaldırılması, sərhədlərimizin təhlükəsizliyinin qorunması, işğaldan azad olunmuş ərazilərimizin minalardan təmizlənməsi, məcburi köçkünlərin öz doğma yurd-yuvalarına qayıtması üçün lazımi şəraitin yaradılması, o cümlədən infrastrukturun qurulması kimi istiqamətlər öz əksini tapıb.

Tahir Mirkişli ötən ilin büdcəsinin gəlirləri və xərcləri ilə bağlı əsas hədəflərə nəzər salıb. O, büdcənin qeyri-neft gəlirlərinin artırılması, qeyri-neft ixracının coğrafiyasının genişləndirilməsi, iqtisadiyyatın diversifikasiyası, vergi inzibatçılığının təkmilləşdirilməsinə yönəlmiş tədbirlərin davam etdirilməsini, dövlət büdcəsinə daxilolmalar üzrə vahid nəzarət mexanizminin tətbiqinin genişləndirilməsini, vergi daxilolmalarının artırılması, vergi borclarının ödənilməsində əlverişli şəraitin yaradılmasını, rəqəmsal ödənişlərin institusional mühitinin daha da yaxşılaşdırılmasını gəlirlər üzrə əsas istiqamətlər kimi qeyd edib.

Komitə sədri xərclərlə bağlı bildirib ki, sosialyönümlüyün təmin edilməsi, o cümlədən dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilən dövlət proqramlarının maliyyələşdirilməsi, əhalinin sağlamlığının qorunması məqsədi ilə səhiyyə sahəsində müvafiq tədbirlərin maliyyələşdirilməsi, işğaldan azad olunmuş ərazilərə böyük qayıdışın təmin edilməsi, şəhər və kəndlərin bərpası, müasir infrastrukturun yaradılması, şəhid ailələrinin, müharibə əlillərinin sosial müdafiəsinin daha da gücləndirilməsi üçün maliyyə təminatının yaradılması, ərzaq və su təhlükəsizliyinin təmin olunması, əhalinin mənzilə olan tələbatının təmin edilməsi məqsədilə güzəştli ipoteka kreditlərinin verilməsi və sosial mənzillərin inşası üçün vəsaitin ayrılması, ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsi və təhlükəsizliyinə dair maliyyənin təmin edilməsi qarşıda duran əsas hədəflərdəndir.

Tahir Mirkişili diqqətə çatdırıb ki, bütövlükdə 2021-ci ilin dövlət büdcəsi qəbul olunan zaman gəlirlərin 25 mlrd. 427 milyon, xərclərin 28 mlrd. 543 milyon, kəsirin 3 mlrd. 116 milyon, ümumi daxili məhsulun artım tempinin 3,4 faiz, qeyri-neft sektorunun artım tempinin 3,1 faiz, inflyasiyanın 3,7 faiz, neftin 1 barelinin qiymətinin 45 dollar olacağı proqnozlaşdırılmışdır. Lakin ötən il pandemiya ilə bağlı karantin rejiminin yumşaldılması bu rəqəmlərə öz təsirini göstərib.

Sonra çıxış edən maliyyə naziri Samir Şərifov bildirib ki, "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsində və bununla bağlı hazırlanmış hesabatda gəlirlərin mədaxil mənbələri, xərclərin icra vəziyyəti ilə bağlı göstəricilər, habelə dövlət borcu ilə bağlı məsələlər, eyni zamanda ehtiyat fondlarından istifadə edilməsi, büdcə fondlarının icra vəziyyəti barədə, icmal büdcənin əsas parametrlərinin icrası ilə bağlı məlumatlar öz əksini tapıb.

Qeyd olunub ki, 2021-ci il sosial-iqtisadi baxımdan xalqımız və dövlətimiz üçün uğurlu olub. Ötən il ərzində ölkəmizin beynəlxalq səviyyədə nüfuzu daha da artıb, dövlətimizin maliyyə vəziyyəti yaxşılaşıb, qarşıya qoyulan əsas məsələlərlə bağlı dövlət büdcəsinin maliyyələşdirdiyi layihələrin icrasına nail olunub. Ölkədə COVID-19-a qarşı vaksinasiyanın həyata keçirilməsi, pandemiya ilə bağlı məhdudiyyətlərin yumşaldılması, dünya bazarında neftin qiymətinin artması fonunda yaranmış əlverişli daxili və xarici makroiqtisadi mühit iqtisadiyyatın daha tez bərpa olunmasına şərait yaradıb.

Diqqətə çatdırılıb ki, 2021-ci ildə iqtisadiyyatın bütün sahələrində bərpa prosesləri sürətlə getmiş, neft sektoru üzrə əlavə dəyər istehsalında 1,8 faiz artım, qeyri-neft sektorunda 7,2 faiz artım qeydə alınıb. 2021-ci ildə ümumi daxili məhsulun (ÜDM) həcmi 70,8 milyard manat proqnozlaşdırılsa da, faktiki həcmi 92,9 milyard manat təşkil edib. ÜDM-in real artım səviyyəsi də nəzərdə tutulandan daha yüksək olub. Dövlət büdcəsində nəzərdə tutulan neftin qiyməti ilə müqayisədə faktiki qiymət daha yüksək olub. Bu da həm dövlət büdcəsinin göstəricilərinin əhəmiyyətli dərəcədə yaxşılaşdırılmasına, həm də icmal büdcənin kəsirsiz icra olunmasına və Dövlət Neft Fondunun aktivlərinin artırılmasına münbit şərait yaradıb.

Bildirilib ki, ötən il monetar və fiskal siyasətin sıx əlaqələndirilmiş şəkildə həyata keçirilməsi nəticəsində və milli valyutanın sabit məzənnəsi şəraitində ölkə iqtisadiyyatında sürətli bərpa və artım dinamıkası müşahidə olunub. Bununla yanaşı, xarici faktorlarla bağlı bəzi mənfi təsirlər də öz əksini tapıb. Dövlət tərəfindən bu proseslər də nəzərə alınıb və ötən il bununla bağlı subsidiyaların verilməsi ilə bağlı qərarlar qəbul edilib.

Ümumiyyətlə, ölkə iqtisadiyyatının ötən il ərzində dinamik inkişafı dövlət və icmal büdcələrinin icrasına öz müsbət təsirini göstərib. Hesabat ilində dövlət büdcəsinin mədaxili 26 mlrd. 396 milyon manat olmaqla, proqnoza qarşı 969 milyon manat və yaxud 3,8 faiz artıq icra edilib. Qeyri-neft sektoru üzrə büdcə daxilolmaları 12 mlrd. 860 milyon manat və yaxud 110,4 faiz, proqnozdan isə 10,4 faiz çox icra olunub. Ötən ilin büdcə gəlirləri Dövlət Vergi Xidmətinin, Dövlət Gömrük Komitəsinin xətti ilə, büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmalar, Mərkəzi Bankın mənfəətindən ayırmalar, Dövlət Neft Fondundan transfert və digər vasitələrlə təşkil edilməklə ümumilikdə qənaətbəxş hesab oluna bilər.

Maliyyə naziri bildirib ki, 2021-ci ilin dövlət büdcəsinin xərcləri proqnoza nisbətən 96,1 faiz və yaxud 27 mlrd. 422 milyon manat səviyyəsində icra edilib. Hesabat ilində büdcə xərcləri ümumi dövlət xidmətləri, müdafiə və milli təhlükəsizlik, məhkəmə hakimiyyəti, hüquq-mühafizə orqanları, təhsil, səhiyyə, sosial müdafiə və sosial təminat, mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti, kənd təsərrüfatı, ətraf mühitin mühafizəsi və bir sıra digər istiqamətləri əhatə edib.

Qeyd olunub ki, 2021-ci ilin əsas nəzərdə tutulan vəzifələri dövlət büdcəsi vasitəsilə təmin olunub. Dövlət büdcəsinin kəsiri nəzərdə tutulandan xeyli az olub və cəmi 1 mlrd. 26 milyon manat təşkil edib.

Diqqətə çatdırılıb ki, ötən ilin icmal büdcəsinin gəlirləri 23 mlrd. 828 milyon manat proqnoza qarşı 33 mlrd. 904 milyon manat icra olunub. İcmal büdcənin xərcləri isə 29 mlrd. 991 milyon manat səviyyəsində icra olunub. Bununla yanaşı, Dövlət Sosial Müdafiə Fondunun, İşsizlikdən Sığorta Fondunun, Dövlət Neft Fondunun gəlir və xərcləri ilə bağlı məlumatlar da iclas iştirakçılarının nəzərinə çatdırılıb.

Sonra iqtisadiyyat nazirinin müavini Sevinc Həsənova 2021-ci ildə ölkənin sosial-iqtisadi inkişafı barədə danışıb, makroiqtisadi vəziyyətin dayanıqlığının qorunması istiqamətində dövlətin yeritdiyi büdcə siyasətindən bəhs edib. Bildirilib ki, ötən il postmünaqişə dövründə işğaldan azad olunmuş ərazilərin bərpa və yenidənqurma işlərinin təməli qoyulub və bu tədbirlər sürətlə davam etdirilir. Struktur islahatları, əhalinin maddi vəziyyətinin yaxşılaşdırılması istiqamətində layihələr həyata keçirilib. Hesabat ilində yüksək iqtisadi artımın müşahidə olunduğu qeyd edilib. Nazir müavini ötən il ümumi daxili məhsulun yüksək həddə çatmasını, qeyri-neft sektorunda ÜDM-in artımını təqdirəlayiq hesab edib. Kənd təsərrüfatı, turizm, İKT, ticarət, nəqliyyat sahələrində, habelə vergilər üzrə daxilolmalarda və digər istiqamətlərdə müşahidə olunan artımın əhəmiyyətindən danışıb.

İclasda Azərbaycan Respublikası Hesablama Palatasının sədri Vüqar Gülməmmədov 2021-ci ilin dövlət büdcəsinin icrasına dair Hesablama Palatasının rəyini təqdim edib. O, qanun layihəsinin və hesabatın mövcud qanunvericiliyin tələblərinə uyğun hazırlandığını bildirib. Büdcənin əsas parametrlərinin doğruluğu ilə bağlı rəydə əks etdirilmiş makroyanaşmaları diqqətə çatdırıb.

Bildirilib ki, rəy icra edilmiş dövlət büdcəsinin gəlirləri və xərcləri, dövlət borcu, büdcə kəsirinin göstəricilərinin əsaslılığı və tamlığını, bu göstəricilərin əsas makroparametrlərə uyğunluğunu özündə əks etdirir. Sənədə ötən ilin debitor borclarının, dövlət satınalmalarının bəzi parametrlərinin səmərəliliyinin qiymətləndirilməsi, müvafiq dövrdə başa çatdırılmış nəzarət tədbirlərinin nəticələri daxil edilib. Bununla yanaşı, dövlət proqramları və tədbirləri, işğaldan azad olunmuş ərazilərdə yenidənqurma və bərpa işlərinin həyata keçirilməsi ilə bağlı ayrılmış dövlət vəsaitlərinin istifadəsinə dair məsələlər diqqətdə saxlanılıb.

Vüqar Gülməmmədov ötən ilin dövlət büdcəsinin icrası ilə bağlı palatanın apardığı təhlillər barədə geniş məlumat verib. Büdcənin icrası ilə bağlı bir sıra təklifləri səsləndirib. O, parlament, Hesablama Palatası, büdcə icraçıları arasında daha sıx əlaqələrin olmasının, belə görüşlərin mütəmadi keçirilməsinin əhəmiyyətini vurğulayıb.

Sonra "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsi ətrafında müzakirələr aparılıb. Komitənin sədr müavini Əli Məsimli, komitə üzvləri Vahid Əhmədov, Rüfət Quliyev, Ziyad Səmədzadə, Vüqar Bayramov, Elnur Allahverdiyev, Aydın Hüseynov, Məzahir Əfəndiyev, İqbal Məmmədov, Məşhur Məmmədov sənəd barədə fikirlərini, qeyd və təkliflərini bildiriblər.

Maliyyə naziri Samir Şərifov, nazir müavini Azər Bayramov, iqtisadiyyat nazirinin müavini Sevinc Həsənova, Hesablama Palatasının sədri Vüqar Gülməmmədov müzakirələr zamanı səsləndirilən fikirlərə münasibət bildiriblər, deputatların qaldırdıqları məsələlərə aydınlıq gətiriblər, verilən sualları ətraflı cavablandırıblar.

İclasın sonunda qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

***Ülkər XASPOLADOVA, "Azərbaycan"***

# Azərbaycanın və Qazaxıstanın xarici işlər nazirləri arasında telefon danışığı olub

Mayın 25-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə Qazaxıstan Respublikasının xarici işlər naziri Muxtar Tleuberdı arasında telefon danışığı olub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazirlər iki ölkə arasında mövcud olan geniş ikitərəfli əməkdaşlıq gündəliyi üzrə fikir mübadiləsi aparıblar.

Eyni zamanda çoxtərəfli platformalarda əməkdaşlıq məsələləri müzakirə edilib.

Nazirlər regional məsələlər, xüsusilə iqtisadi, nəqliyyat və logistika sahələrində əməkdaşlıq haqqında fikir mübadiləsi aparıblar.

Tərəflər həmçinin qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

# Pakistanla əmək, məşğulluq və sosial müdafiə sahəsində əməkdaşlığa dair sənəd imzalanıb

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində Pakistan İslam Respublikasının ölkəmizdəki səfiri Bilal Hayi ilə görüş olub.

Azərbaycanla Pakistan arasında münasibətlərin yüksək səviyyədə olduğunu vurğulayan əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Azərbaycan və Pakistanın dövlət başçıları tərəfindən iki ölkə arasında əlaqələrin inkişafına xüsusi diqqət yetirildiyini, qarşılıqlı səfərlərin, imzalanmış sənədlərin əməkdaşlığın inkişafında mühüm rol oynadığını diqqətə çatdırıb.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, nazir ölkəmizin ərazi bütövlüyünün təminatı məsələsinin həllində Pakistanın Azərbaycana daimi siyasi və mənəvi dəstəyinin xalqımız tərəfindən yüksək qiymətləndirildiyini vurğulayıb və bu dəstəyə görə minnətdarlığını ifadə edib.

S.Babayev iki ölkənin əmək, məşğulluq və sosial müdafiə sahələri də daxil olmaqla bir çox sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün böyük potensiala malik olduğunu bildirib.

Ölkəmizdə aparılan sosial islahatlar, DOST konsepsiyası barədə məlumat verən nazir sosial sahədə ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsinin qarşılıqlı fayda verəcəyini vurğulayıb.

Azərbaycanın Pakistan üçün dost və qardaş ölkə olduğunu bildirən B.Hayi iki ölkənin əməkdaşlıq əlaqələrinin daim genişlənməsinin məmnunluq doğurduğunu vurğulayıb. Sosial sahədə də həmin əlaqələrin ildən-ilə genişlənəcəyinə əminliyini ifadə edib.

Görüş çərçivəsində S.Babayev və B.Hayi "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Pakistan İslam Respublikasının Xaricdə Yaşayan Pakistanlılarla İş və İnsan Resurslarının İnkişafı Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu" imzalayıblar.

Sənədin Azərbaycan və Pakistanın əmək, məşğulluq və sosial müdafiə sahəsində əlaqələrinin inkişafında mühüm rol oynayacağı vurğulanıb.

Memorandumda iki nazirlik arasında əmək, məşğulluq və sosial müdafiə sahələrində qanunvericiliyin təkmilləşdirilməsi, əmək qanunvericiliyinə əməl olunmasına nəzarət, əməyin mühafizəsi, həssas qruplar üçün məşğulluq imkanlarının genişləndirilməsi, işsiz və işaxtaranlar üçün peşə hazırlığı, peşə standartlarının hazırlanması və tətbiqi, əməkçi miqrantların hüquqlarının təminatına nəzarətin həyata keçirilməsi və s. sahələrdə əməkdaşlığın həyata keçirilməsi nəzərdə tutulur.

Həmçinin sənəddə əlilliyi olan şəxslərin reabilitasiyası və məşğulluq imkanlarının artırılması, əlilliyin qiymətləndirilməsi, əlilliyi olan şəxslərlə bağlı siyasətin təkmilləşdirilməsi və digər sahələrdə əməkdaşlıq edilməsi əksini tapır.

**"TEKNOFEST" Aviasiya, Kosmos və Texnologiya Festivalı ilk dəfədir ki, Türkiyənin hüdudlarından kənarda keçirilir. Bu ünvanın məhz Azərbaycan seçilməsi xalqlarımız arasında dostluğun, qardaşlıq və strateji müttəfiqlik əlaqələrinin yeni və daha yüksək mərhələyə adlamasını təsdiqləyir. Sərgi bu gün başlasa da, artıq neçə gündür ki, bakılılar türk şahinlərinin paytaxtın səmalarındakı uçuşlarını maraq və sevinclə izləyirlər.**



# «TEKNOFEST-2022» - qardaşlığın yeni zirvəsi

Bu gündən başlayaraq "TEKNOFEST Azərbaycan" tədbiri mayın 29-dək "Bakı Kristal Zalı" və Dənizkənarı bulvar ərazisində keçiriləcək. "Türkiyə Texnologiya Komandası"-T3 Fondu, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Türkiyə Respublikasının Sənaye və Texnologiya Nazirliyi festivalın təşkilatçılarıdır.

Əvvəlcə onu qeyd edək ki, festival 2018-ci ildən etibarən hər il təşkil olunur. Azərbaycan bu tədbirə ilk dəfə 3 il sonra - 2021-ci ildə qatılmışdır. Budəfəki sərgidə "TEKNOFEST Azərbaycan" çərçivəsində 8 kateqoriya üzrə texnologiya müsabiqələri, "Smart Qarabağ" Hakatonu, "Take Off" Azərbaycan Startap Sammiti və "Rocket League" videooyunu üzrə Avropa Kiber İdman Kuboku təşkil olunub. Tədbirin sərgi hissəsində tərəfdaş qurumların məhsul və həllərinin, eləcə də gənclərin hazırladıqları prototipləri və STEM layihələri nümayiş etdirir, açıq səma altındakı statik ərazidə isə pilotsuz uçuş aparatları və vertolyotları sərgilənir.

Vertolyotdan söz düşmüşkən: Türkiyənin sabiq baş naziri Binəli Yıldırım demişdir: "Vaxtilə Əbülfəz Elçibəy dörd vertolyot istədi, Türkiyə onları verə bilmədi. Bu gün isə Prezident Ərdoğan deyə bildi ki, Qarabağ sizin haqq işinizdir. Ərdoğan deyə bildi ki, sizin başınıza gətirilənlər, bizim də başımıza gətirilib. Biz sizin yanınızdayıq. O, bu mesajı bütün dünyaya göndərə bildi". Bu gün Türkiyə-Azərbaycan münasibətləri tarixin ən yüksək zirvəsindədir. Tarix boyu Türkiyə və Azərbaycan heç vaxt bu qədər bir-birinə yaxın olmayıblar. Vaxtilə Ermənistanın törətdiyi soyqırımından azərbaycanlı mülki əhalini xilas etmək istəyən Azərbaycana Türkiyə yardım əlini uzada bilmədi. Amma indi Türkiyə tam Azərbaycanın yanındadır, ölkələrimiz arasında qarşılıqlı dəstək potensialı tam realizə olunur. Bu gün tarixi, mədəniyyət və digər əsaslarla yanaşı, Prezident İlham Əliyev və Prezident Rəcəb Tayib Ərdoğanın yürütdüyü siyasət iki qardaş ölkə arasında münasibətlərin ən yüksək zirvəyə qalxmasını şərtləndirən əsas amildir. İndi Türkiyə və Azərbaycan ötən əsrin 90-cı illərindəki ölkələr deyil, Prezident İlham Əliyev və Prezident Ərdoğanın sayəsində öz taleyi, siyasəti, münasibətləri və s. ilə bağlı özləri qərar verən, maraq və mənafelərini müdafiə etməyi və istənilən təzyiqə müqavimət göstərməyi bacaran güclü dövlətlərdir.

Artıq xəbər verildiyi kimi, "TEKNOFEST" İdarə Heyətinin və T3 Fondu Qəyyumlar Şurasının sədri Selçuq Bayraktar və Türkiyənin sənaye texnologiya nazirinin müavini Mehmet Fatih Kacır Bakıdadırlar.

Ən maraqlısı odur ki, festivala Azərbaycanın çoxsaylı orta məktəblərində hazırlıq getmişdir. Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəblərinin şagirdlərindən ibarət "Analitik", "Young İnventers" komandaları və "Kəşf robot" layihəsi festivalda iştirak edəcəklər. Naxçıvanlı məktəblilər "Kəşf robotu", "Yol təhlükəsizlik" və "Heyvandarlıq təsərrüfatında avtomatik yemləmə sistemi" layihələrini təqdim edəcəklər. Onu da qeyd etmək vacibdir ki, tədbirə digər rayonların da məktəbliləri, ölkənin ali təhsil müəssisələrindən tələbələr qatılacaq.

Eyni zamanda festivalda alimlərimiz də öz bilik və bacarıqlarını göstərəcəklər. Belə ki, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Biofizika İnstitutu festival çərçivəsində təşkil olunan sərgidə süni intellektə əsaslanan və ağciyər xərçənginin təyin edilməsində insanın qan plazmasından istifadəni nəzərdə tutan yeni texnologiya təqdim edəcək. Yeni model süni intellektin tətbiqi ilə ağciyər xərçəngi xəstələrini 80-90 faiz dəqiqliklə identifikasiya etməyə imkan verir. Artıq tədqiqat işi çərçivəsində 47 sağlam şəxsin və 50 ağciyər karsinoması xəstəsinin qan nümunələri tədqiq olunmuşdur. Yaradılan model sağlam qan nümunələrini 80 faiz, xərçəng hüceyrəsi nümunələrini isə 90 faiz dəqiqliklə müəyyən etməyə imkan vermişdir.

AMEA Neft-Kimya Prosesləri İnstitutu və Yüksək Texnologiyalar Parkının rezidenti olan "İNKOR" Məhdud Məsuliyyətli Cəmiyyəti "TEKNOFEST Azərbaycan" Aviasiya, Kosmos və Texnologiya festivalı çərçivəsində təşkil olunacaq sərgidə Azərbaycan elmini yüksək səviyyədə təmsil etməyi planlaşdırır.

Akademik Vaqif Abbasov "TEKNOFEST Azərbaycan" festivalının ölkəmizdə keçirilməsini yüksək qiymətləndirmişdir. Akademik bu festivalın Azərbaycan və Türkiyənin iqtisadi, hərb və mədəniyyət sahələri ilə yanaşı, həm də elm və texnika sahəsində də birliyini nümayiş etdirdiyini diqqətə belə çatdırmışdır: "Bu qardaşlığın iki ölkə ilə yanaşı, eyni zamanda bütün dünya üçün böyük faydası var. Hesab edirəm ki, bu mötəbər tədbir vaxtında təşkil olunmuş festivaldır və burada elmimizi yüksək səviyyədə təmsil etməliyik". V.Abbasov həmçinin sərgidə AMEA üçün böyük sahəni əhatə edən xüsusi pavilyonun ayrılmasını olduqca sevindirici hadisə kimi dəyərləndirmiş və qeyd etmişdir ki, bu pavilyon AMEA-nın elmi müəssisə və təşkilatlarında əldə olunan ən yüksək nailiyyətləri nümayiş etdirməyə və elmimizin geniş şəkildə təbliğinə böyük imkanlar açır.

Festivalın gündəliyi isə zəngindir. Bu günlər ərzində əyləncə proqramına Azərbaycan Hərbi Hava Qüvvələrinin, eləcə də Türkiyənin "Türk Ulduzları" və "Solo Türk" aerobatika komandalarının nümunəvi pilotaj uçuşları, böyük səhnədə incəsənət xadimlərinin çıxışları, şaquli külək tuneli, su attraksionları, uçuş simulyatorları, robotlar və s. daxildir.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Böyük qayıdışa əngəl yalnız minalardır

## Azərbaycan dövləti Qarabağ və Şərqi Zəngəzurda təhlükəsiz həyatın təmin olunması üçün mühüm layihələr həyata keçirir



"Brüssel prosesi" çərçivəsində Prezident İlham Əliyev, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel və Ermənistanın baş naziri Nikol Paşinyan arasında mayın 22-də keçirilən növbəti üçtərəfli görüşün müzakirə mövzularından biri də işğaldan azad edilmiş ərazilərimizdə mina probleminin həlli ilə bağlı idi.

Ümumiyyətlə, Azərbaycan Qarabağ və Şərqi Zəngəzurda mövcud olan mina probleminin həlli məsələsini bütün beynəlxaq platformalarda qaldırır və bu dəfə də belə oldu.

Üçtərəfli görüşdən əvvəl Prezident İlham Əliyevlə Şarl Mişel arasında keçirilən təkbətək görüş zamanı da dövlətimizin başçısı işğaldan azad edilmiş əraziləri mina problemi və Birinci Qarabağ müharibəsində itkin düşmüş hesab olunan 4 minə yaxın şəxsin taleyinə aydınlıq gətirilməsinin vacibliyini bir daha vurğulayıb.

Şarl Mişel üçtərəfli görüşün yekunlarına dair mətbuata açıqlamasında bildirib ki, humanitar məsələlər, o cümlədən minaların təmizlənməsi və saxlanılanların azad edilməsi ilə bağlı səylərlə əlaqədar ətraflı müzakirələr aparılıb və itkin düşmüş insanların taleyinə toxunulub.

Göründüyü kimi, Azərbaycanın regionda sülhə və rifaha xidmət edən bütün addımlarında olduğu kimi, Qarabağ və Şərqi Zəngəzurda mina probleminin həlli məsələsində də Avropa İttifaqı ölkəmizə tam dəstəyini ifadə edir. Təsadüfi deyil ki, Aİ Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinə (ANAMA) 2,5 milyon avro məbləğində yardım göstərib.

### Milli prioritet

44 günlük Vətən müharibəsinin zəfərlə başa çatmasından sonra Azərbaycan dövlətinin qarşısında duran əsas milli prioritet keçmiş məcburi köçkünlərin doğma yurdlarına ləyaqətli və təhlükəsiz qayıdışıdır. Buna görə də, qələbədən dərhal sonra Azərbaycan işğaldan azad etdiyi Qarabağ və Şərqi Zəngəzur bölgəsində ərazilərin bərpasına və yenidənqurulmasına başlayıb.

Doğma yurdlarına qayıdacaq vətəndaşlarımızın yaşayışı və işgüzar fəaliyyəti üçün Qarabağda mühüm layihələr həyata keçirilir. İşğaldan azad edilən ərazilərimizdə infrastruktur bərpa olunur, yollar çəkilir, su-elektrik stansiyaları tikilir, beynəlxalq hava limanlarının təməlləri qoyulur, istifadəyə verilir, "ağıllı kənd", "ağıllı şəhər"lər salınır. İşğalçı Ermənistan tərəfindən barbarlıqla dağıdılan, məhv edilən tarixi, mədəni, dini irsimiz bərpa olunur.

Lakin işğalçı Ermənistanın faşist xislətinə xas olaraq torpaqlarımızda saysız mina basdırması bu prosesin tez bir zamanda baş verməsini ləngidən əsas səbəbdir. Çünki belə geniş ərazilərin minalardan təmizlənməsi olduqca böyük zaman və resurs tələb edir.

Ötən ilin 15 oktyabrında Prezident İlham Əliyev MDB Dövlət Başçıları Şurasının videoformatda keçirilən iclasındakı çıxışında da bu məsələ ilə bağlı bildirdi ki, hazırda Azərbaycanın qarşısında duran əsas problemlər azad edilmiş ərazilərin minalardan təmizlənməsi və dağıdılmış infrastrukturun, binaların, evlərin, Azərbaycan xalqının tarixi abidələrinin bərpasıdır.

Üçtərəfli Bəyanatın imzalanmasından sonra Ermənistan tərəfindən Azərbaycanın işğaldan azad olunan ərazilərinə döşənmiş minaların partlaması nəticəsində xeyli sayda insan həlak olub, ciddi xəsarət alıb. Onların arasında KİV nümayəndələri də var.

### 20 min hektardan çox ərazi təmizlənib

2020-ci il noyabrın 10-dan sonra işğaldan azad olunmuş ərazilərimizdə 23 min hektardan çox ərazi təmizlənib, 55 mindən çox mina və partlamamış hərbi sursat zərərsizləşdirilib. Bunlardan 10 mini tank əleyhinə mina, 19 mini piyada əleyhinə mina, 26 mini isə partlamamış hərbi sursatlar olub.

Xatırladaq ki, Azərbaycanın ardıcıl tələblərindən və beynəlxalq təzyiqlərdən sonra ötən ilin sonunda Ermənistan işğaldan azad edilmiş müəyyən ərazilərin minalanmış sahələrinin xəritəsini ölkəmizə təqdim etsə də, faktiki olaraq bu sənədlər işğaldan azad edilmiş əraziləri tam əhatə etmir.

Ötən il iyunun 12-də Ermənistan Ağdam rayonu üzrə 97 min tank və piyada əleyhinə minanın xəritəsini Azərbaycan tərəfinə verməyə məcbur edilmişdi. İyul ayının əvvəlində isə işğal zamanı Füzuli və Zəngilanda basdırılmış təqribən 92 min minanın xəritəsi alınmışdı. Lakin həmin xəritələrin də dəqiqliyi cəmi yüzdə 25 faiz təşkil edir.

Azərbaycanın 2030-cu ilədək milli prioritetləri sırasında azad edilmiş ərazilərin bərpası və bu ərazilərə həyatın qaytarılması əsas strateji hədəflərdən biri kimi qoyulub. Qarabağda və Şərqi Zəngəzurda Azərbaycan dövlətinin həyata keçirdiyi irimiqyaslı tikinti və bərpa işləri ilə paralel olaraq minatəmizləmə ilə bağlı apardığı sürətli işlər də onu deməyə əsas verir ki, dövlətimiz qarşısına qoyduğu bu hədəfi uğurla icra edir. Həm də Qarabağ və Şərqi Zəngəzurun minalardan təmizlənməsi ilə bölgədə sülhün, inkişafın bərqərar olmasına töhfə verilir.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Yarım əsrdən artıq tarixində Davos Forumu ilk dəfə ən çətin suallara cavab axtarır

## M.CABBAROV: "Azərbaycan Avropaya enerji daşıyıcıları tədarükünün artırılması məsələsini müzakirə etməyə hazırdır"

Xəbər verildiyi kimi, pandemiya ilə bağlı ikiillik fasilədən sonra Davos Forumu mayın 22-də ilk tədbirinə başlayıb. Çıxışlar və müzakirələr mayın 26-dək davam edəcək. Forumun rəhbəri Klaus Şvab bəyan edib ki, iqlim dəyişiklikləri, dördüncü sənaye inqilabının yeni texnologiyaları kimi məsələlər müzakirə olunacaq.




Beynəlxalq İqtisadi Forumun yaradıcısı və rəhbəri K.Şvab belə hesab edir ki, son iki ildə virtual görüşlərlə əlaqə quran biznesin, siyasətin və vətəndaş cəmiyyətinin liderləri, nəhayət, yenidən yığışaraq qarşılıqlı etimad mühitini yaratmalı, çoxsaylı problemlərin həllini sürətləndirməlidirlər. Beləliklə, forumda yüksəkçinli siyasət, elm, iqtisadiyyat və media mənsubları bir araya gələrək Ukraynadakı münaqişə, pandemiya, qlobal inflyasiya və iqlim dəyişiklikləri kimi mövzuların müzakirəsinə start veriblər.

Lakin forumun ilk günündən Klausun arzuladığı etimad mühiti deyəsən çətin alınır. Biz bu tədbirlərdə liderlərin toqquşmalarının, fərqli mövqelərin mübahisələrinin çox sahidi olmuşuq. Bu dəfə isə vəziyyət daha mürəkkəbdir. Belə ki, beynəlxalq münasibətlərin az qala üçüncü dünya müharibəsi səviyyəsində gərginləşməsi, tərəflər arasında qütbləşmənin dərinləşməsi forumda özünü ilk gündən bütün ciddiliyi ilə büruzə verib. Ekspertlər qeyd edirlər ki, tədbir Rusiyasız keçir və əsas diqqət Ukraynaya yönəlmişdir. Rusiya ilə Ukrayna arasındakı gərginlik hamının ovqatına mənfi təsir edir. Artan qiymətlərin fonunda baş verə biləcək ərzaq böhranı isə, sözün əsl mənasında, hamını vahiməyə salir. Bəs 2500 nəfərin, o cümlədən 50-dən çox hökumət və dövlət başçısının iştirak etdiyi forumda diqqət mərkəzində duran məsələlər hansılardır? Hamı ümid edir ki, yarım əsrdən çox təcrübəyə malik Davos Forumu bu il daha məhsuldar olmalıdır. İki il əvvəl Davosda iştirakçılar görüşəndə tədricən dünyaya Çindən yayılan virusdan danışırdılar, indi isə hamı həmin virusdan ölənlərin sayının milyonlarla olduğunu qeyd edir. Bu gün bəşəriyyət pandemiyanı adlayıb keçsə də, onun yaraları hələ də özünü büruzə verir. Bu da forumda ciddi müzakirə olunan məsələlərdəndir.

Təzadlara fikir verin. Ukrayna bu tədbirdə öz gələcəyi ilə bağlı təkliflərini verir, milyarderlər isə onların yeni vergilərlə yüklənməsini tələb edirlər. Bu təklifi edən milyarderlər qrupunun əsas məqsədi qlobal bərabərsizliyin aradan götürülməsidir. "Bizim hökumətlərimiz bu ədalətsiz bərabərsizliyin aradan götürülməsi üçün əvvəlki kimi heç bir iş görmək istəmir, əvəzində isə bağlı qapılar arxasında oturub, səxsi sərvətlərinin sərgilərində iştirak edirlər. Bu il yenə 250 milyon insan dilənçiliyin uçurumlarına yıxılacaq. Dünyanın tənzimlənməsinin zamanı gəlmişdir. Varlılar hamı kimi vergi ödəməlidirlər", - deyə milyoner Marlen Enqelhorn bildirmişdir.

Davos İqtisadi Forumunda hamı razılaşır ki, 1971-ci ildən üzü bəri bu qurum heç zaman bu dərəcədə çətin qlobal problemlərlə üzləşməmişdir. Bunlardan ən vacibləri Rusiya-Ukrayna münaqişəsi və onun dünyanı silkələyən təkcə nəticələri yox, həm də planetar miqyasda yaranan yeni qlobal təhlükələr və problemlərdir. Koronavirusdan sonra dünyanın bərpası, iqlim dəyişikliklərinin dağıdıcı təsiri və digər amillər də Davosda özünü daha qabarıq büruzə verir.

Davosda Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarovun çıxışı aktuallıq və perspektiv münasibətləri inkişaf etdirmək baxımından daha maraqlı və diqqətçəkən oldu. Nazir çıxışında bildirdi ki, Azərbaycan Avropanın enerji təchizatını gücləndirmək üçün əlavə enerji resurslarına malikdir: "Azərbaycandan enerji ehtiyatları tədarükünü artırmağı xahiş edirlər. Biz bazara tədarükü artırmaqdan məmnunuq. Amma son bir neçə ildə bu sektora investisiyalar qazıntı yanacaqlarla bağlı maliyyə təşkilatlarının dəyişən siyasəti ilə əlaqədar kifayət qədər deyil".

"Cənub qaz dəhlizi"nin Azərbaycanla Avropa arasındakı münasibətlərə təsir gücü ilə bağlı suala cavab verərkən M.Cabbarov qeyd etdi ki, Azərbaycan həm də Gürcüstan və Türkiyəyə iri qaz tədarükçüsüdür, oradan isə mavi yanacaq Yunanıstan, Bolqarıstan, İtaliya və Albaniyaya nəql olunur. Hazırda Avropaya qaz tədarükünün artırılması ilə bağlı tərəfdaşlarla işlər aparılır.

Nazir İqtisadi Forumda həmçinin vurğuladı ki, biz Avropaya enerji daşıyıcıları tədarükünün artırılması məsələsini müzakirə etməyə hazırıq. Azərbaycanın özünün enerji ehtiyatlarının birgə mənimsənilməsi siyasətini yürütdüyünü diqqətə çatdıran nazir əlavə etmişdir ki, Azərbaycan məhsul və xidmətlərin tədarükü, siyasi dialoqda iştirakı, ümumi makroiqtisadi prioritet və möhkəm maliyyə bazası baxımından sabit tərəfdaş olmağa çalışır.

***B.İMANQULİYEV,***
***"Azərbaycan"***

# Müdafiə naziri "Baykar" şirkətinin texniki direktoru Selçuk Bayraktarla görüşüb

Mayın 25-də müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Türkiyənin "Baykar" şirkətinin texniki direktoru Selçuk Bayraktarla görüşüb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, qonağı salamladıqdan sonra müdafiə naziri iki ölkə arasında hərbi əməkdaşlığın dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğunu, bu əlaqələrin inkişaf etdiyini və möhkəmləndiyini bildirib. Ölkə rəhbərlərinin dostluq münasibətlərinin dövlətlərimiz arasında əlaqələrin inkişafında mühüm rol oynadığını xüsusi vurğulayan general-polkovnik Z.Həsənov belə görüşlərin qarşılıqlı əməkdaşlığımızın genişləndirilməsi baxımından vacibliyini qeyd edib.

Görüşdə bu il "TEKNOFEST Azərbaycan" festivalının Bakıda keçirilməsinin əhəmiyyəti xüsusi vurğulanıb. Azərbaycan ilə Türkiyə arasında hərbi-texniki əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri barədə ətraflı fikir mübadiləsi aparılıb.



# Selçuk Bayraktara Azərbaycan Texniki Universitetinin fəxri doktoru adı verilib

"Baykar" şirkətinin texniki direktoru, Türkiye Teknoloji Takımı Vakfının (T3 Vakfı) rəhbəri, "Qarabağ" ordenli Selçuk Bayraktar Azərbaycan Texniki Universitetinin (AzTU) tələbələri ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, tədbirdə Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı, müxtəlif nazirliklərin rəhbər şəxsləri, universitetin professor-müəllim heyəti iştirak edib.

Tədbirdə çıxış edən təhsil nazirinin müavini Firudin Qurbanov Selçuk Bayraktarı AzTU-da görməkdən məmnunluğunu ifadə edib. Bildirib ki, hər hansı şəxsin inkişafı onun mükəmməl elmə və təhsilə yiyələnməsi ilə birbaşa bağlıdır. Bu mənada Bayraktarı bütün dünyaya tanıdan onun mükəmməl elmə, təhsilə yiyələnməsi olub. Azərbaycanda müdafiə sənayesinin inkişafına göstərilən diqqətdən danışan nazir müavini qeyd edib ki, bu istiqamətdə yüksəkixtisaslı kadr hazırlığının aparılması da mühüm şərtlərdəndir. O qeyd edib ki, hazırda AzTU regionda müdafiə sənayesi üzrə kadr hazırlayan yeganə universitetdir. Son illər AzTU Türkiyənin aparıcı universitetləri, tədqiqat və innovasiya mərkəzləri ilə əməkdaşlıq əlaqələrini yüksək səviyyədə inkişaf etdirir.

AzTU-nun fəxri qonağı Selçuk Bayraktar tələbələrlə görüşündə müdafiə sənayesinin inkişafının ölkə üçün əhəmiyyətini vurğulayıb. O, müəllifi olduğu müasir texnologiyalar, eyni zamanda, hazırda Türkiyənin ilk uçan avtomobili olan "CEZERİ" və Türkiyənin ilk pilotsuz döyüş təyyarəsi olacaq "Bayraktar Kızılelma" (MİUS) layihələri və üzərində çalışdığı yeni tədqiqat işləri barədə tələbələrə məlumat verib.

Daha sonra Selçuk Bayraktara Azərbaycan Texniki Universitetinin fəxri doktoru adının verilməsi mərasimi keçirilib. Fəxri doktor diplomunu qonağa AzTU-nun rektoru professor Vilayət Vəliyev təqdim edib.

V.Vəliyev Selçuk Bayraktarın rəqəmsal platformada texnoloji gələcək üçün apardığı araşdırmaları, elm və texnologiyanın inkişafına verdiyi əvəzsiz töhfələri xüsusi qeyd edib və AzTU-nun tələbələri ilə görüşdüyü üçün ona minnətdarlığını bildirib.

Qeyd edilib ki, bu günə qədər 15 nəfərə AzTU-nun fəxri doktoru adı verilib, onlardan ən gənci Selçuk Bayraktardır. Selçuk Bayraktar AzTU-nun fəxri doktoru adına verdiyi ideyalar və ağıllı həllər nəticəsində elm və texnologiyanın inkişafına əvəzsiz töhfələrinə, Türkiyə ilə Azərbaycan arasında müdafiə sənayesi sahəsində əməkdaşlığın ən yüksək səviyyəyə çatdırılmasındakı dəstəyinə, Azərbaycanda gənc mühəndis kadrların hazırlanmasına və texnoloji innovasiyaların öyrənilməsinin kütləviləşməsinə göstərdiyi müstəsna xidmətlərinə görə verilib.

Tədbirdən sonra Selçuk Bayraktar universitetin foyesində "TEKNOFEST Azərbaycan"da iştirak edəcək AzTU komandalarının əl işlərindən ibarət sərgiyə və rəsm sərgisinə baxıb.

# "Albayrak Media Group"un rəhbərliyi Medianın İnkişafı Agentliyində olub

**Mayın 25-də Medianın İnkişafı Agentliyində "Albayrak Media Group"un rəhbəri Ömər Karaca və təmsilçisi Samir Babaoğlu ilə görüş keçirilib.**

Medianın İnkişafı Agentliyindən AZƏRTAC-a bildiriblər ki, görüş zamanı MEDİA-nın İcraçı direktoru Əhməd İsmayılov qonaqları Azərbaycanda bir müddət əvvəl qəbul edilmiş "Media haqqında" qanun, bu qanunun üstünlükləri, eləcə də ölkədə media reyestrinin yaradılması barədə məlumatlandırıb. Əhməd İsmayılov nümayəndə heyətinə bu reyestrin fəaliyyətə başlamasından sonra Azərbaycan media nümayəndələrinin yararlana biləcəyi imtiyazlar barədə ətraflı məlumat verib. O əlavə edib ki, "Media haqqında" qanuna əsasən, onlayn mediada işləyən jurnalistlər də rəsmi status alıblar.

İcraçı direktor həmçinin türkiyəli həmkarlarını Azərbaycanda media sahəsinin inkişafı üçün atılan addımlar, çap mediası və xəbər saytlarına dəstək proqramları, eləcə də digər təşəbbüslər barədə məlumatlandırıb.

"Albayrak Media Group"unun rəhbəri Ömər Karaca iki ölkə mediası arasında münasibətlərin inkişafına verdiyi töhfəyə görə Azərbaycan tərəfinə təşəkkürünü bildirib.

Ömər Karaca həmçinin qeyd edib ki, iki qardaş, dost ölkənin media qurumları arasında aparılan informasiya mübadiləsi hər iki tərəfin xeyrinə olacaq.

# Hərbi attaşelər Naxçıvana səfər ediblər

Azərbaycan Respublikasında akkreditə olunmuş xarici dövlətlərin hərbi attaşeləri və onların ailə üzvlərinin Naxçıvan Muxtar Respublikasına səfəri təşkil edilib.

Səfər çərçivəsində qonaqlar Heydər Əliyev Muzeyində, Heydər Əliyev adına Hərbi Liseydə və bir sıra hərbi obyektlərdə olublar.

AZƏRTAC xəbər verir ki, qonaqlar əvvəlcə Heydər Əliyev Muzeyini ziyarət ediblər. Məlumat verilib ki, muzey Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 1999-cu il 18 fevral tarixli sərəncamı ilə yaradılıb. Buradakı eksponatlar görkəmli dövlət xadiminin ictimai-siyasi fəaliyyətini, keçdiyi şərəfli həyat yolunu özündə əks etdirən kitab, qəzet və jurnallardan, 1990-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi işləyib hazırladığı, qəbul etdiyi tarixi qərar və sərəncamlardan, imzalanmış protokol və müqavilələrdən, məktub və teleqramlardan, istifadə etdiyi xatirə əşyalarından və digər eksponatlardan ibarətdir.

Diqqətə çatdırılıb ki, dahi şəxsiyyətin muzeylərə sığmayan zəngin ömür yolunu əks etdirən dəyərli ekspozisiyada Ulu Öndərimizin uşaqlıq və gənclik dövrləri, təhsil illəri, ilk əmək fəaliyyəti, muxtar respublikaya rəhbərlik etdiyi illər, müstəqil Azərbaycanın memarı kimi fəaliyyəti dövrü zəngin materiallarla nümayiş etdirilir. Ziyarətin sonunda qonaqlar muzeyin xatirə kitabına ürək sözlərini yazıblar.

Sonra Heydər Əliyev adına Hərbi Liseydə olan qonaqlara məlumat verilib ki, 1998-ci ildə 56 kursantla fəaliyyətə başlayan liseydə bu gün ölkəmizin müxtəlif bölgələrindən yüzlərlə gənc hərbi təhsil alır. Nümunəvi hərbi tədris sisteminə və möhkəm maddi-texniki bazaya malik olan hərbi lisey silahlı qüvvələrin peşəkar hərbi kadrlarla təminatında önəmli rol oynayır. Liseyin məzunları Vətən müharibəsində peşəkarlığı və qəhrəmanlığı ilə qələbədə böyük paya sahib olublar. Liseydə kursantların təhsili, yaşayışı və asudə vaxtlarının səmərəli təşkili təmin edilib, gündəlik mətbuatı izləmək, şahmat və digər idman növləri ilə məşğul olmaq imkanı yaradılıb. Burada kursantların sağlamlığı, fiziki hazırlığı və qidalanması da diqqət mərkəzindədir. Müasir avadanlıqlarla təchiz olunan tibb məntəqəsi, idman zalı, futbol meydançası, açıq və qapalı idman qurğuları və digər obyektlər kursantların istifadəsinə verilib.

Qonaqlar kursantların sosial məişət şəraiti, yataqxana və tədris otaqları ilə tanış olublar.

Səfər çərçivəsində qonaqlar Əlahiddə Ümumqoşun Ordunun müxtəlif bölmələrinə baş çəkib, qərargah və digər binaların imkanları ilə tanış olublar. Təlim-Tədris Mərkəzində qonaqlara məlumat verilib ki, binada, rabitə, taktiki hazırlıq, qarovul hazırlığı, atəş hazırlığı, topoqrafiya, komandir hazırlığı və digər sinif otaqları, tədbir zalı fəaliyyət göstərir. Hərbi tədris proqramının keyfiyyətlə mənimsənilməsi, şəxsi heyətin peşəkarlığının və nəzəri biliklərinin artırılması üçün lazımi şərait yaradılıb, kompüterlər quraşdırılıb, əyani vəsaitlər və məlumat stendləri qoyulub. Trenajor zalında tank, artilleriya və digər zirehli texnikaların idarə olunması, eləcə də texniki və atış sistemləri üzrə trenajorlar quraşdırılıb. Trenajorlar vasitəsilə zirehli texnikaların idarə olunması və döyüş zamanı onlardan atəş açılması öyrədilir.

Sonra qonaqlar hərbi hissədə əsgəri məişət kompleksləri, həmçinin döyüş texnika parkı və döyüş texnikaları ilə tanış olublar. Ziyarət zamanı qonaqlar üçün çay, eləcə də nahar süfrəsi təşkil edilib.

Azərbaycan Respublikasında akkreditə olunmuş xarici dövlətlərin hərbi attaşelərinin Naxçıvan Muxtar Respublikasına səfəri davam edir.

# Vətəni şəxsi maraqlar üçün qorumurlar

Müharibə deyəndə ölümsaçan silahların dil açdığı, arzuların ürəklərdə məhv edildiyi, ata həsrətli bir körpənin göz yaşında boğulduğu, ölüm, itim göz önündə canlanır.

Ağrısına, əzabına baxmayaraq, müharibədə qazanılan zəfərdən böyük qələbə, bu qələbənin sevinci qədər fərəhli, qürurlu hiss yoxdur. Hamı bu sevinci bölüşmək, ondan pay götürmək, qələbənin gətirdiyi qüruru yaşamaq istəyir. 30 il idi ki, xalqımız qələbəyə, onun sevincinə həsrət idi. 44 günlük Vətən müharibəsi yurd nisgilinə, Vətən həsrətinə son qoyduğu kimi, təşnəsində olduğumuz böyük qələbənin sevincini yaşamaq xoşbəxtliyini nəsib etdi bizlərə.

Xalqımızın vətənpərvər, namuslu oğulları müharibə xəbərini eşidən kimi Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti İdarəsinin qarşısına axışıb torpaq və vətən naminə canlarından keçməyə hazır olduqlarını, silaha sarılıb döyüşmək istədiklərini qətiyyətlə bildirdilər və döyüş meydanına atıldılar. 44 günlük müharibədə oğullarımız qanları ilə xalqımızın qəhrəmanlıq dastanının ən şərəfli səhifəsini yazdılar. Üstümüzdən qara ləkə götürülsün deyə, al-qanlarını axıtdılar.

İstər müharibə gedən zaman, istərsə də ondan sonrakı keçən vaxt ərzində xalqla dövlətin sarsılmaz birliyi nəticəsində döyüşən, qələbədə haqqı olan hər kəsə fərdi qayğı göstərildi, problemləri, qayğıları öyrənilib yerindəcə həll edildi. Qazilərimiz ilk növbədə yüksək texnologiyalı protezlərlə, avtomobillə, evlə, işlə təmin edildi. Əmək qabiliyyətini itirənlərə yüksək məbləğdə pensiyalar kəsildi. Bu proses davam edir. Bununla yanaşı, şəhid və qazilərimizin bəziləri, hətta könüllü olaraq bu yardımlardan, qayğılardan imtina edir. Dövlətə öz köməklərini təklif edirlər, bu istiqamətdə çalışırlar. Nə xoş ki, müharibədə iştirak edənlərin, şəhid və qazi olanların böyük əksəriyyətinin özləri və ailələri, böyük amal, böyük ürək sahibləri məsələyə bu aspektdən yanaşırlar.

XTQ-nin şəhid leytenantı Elnur Vəliyevin atası Əli Vəliyev bizimlə söhbəti zamanı bəzi məqamlara toxundu: "Oğlumun müharibədə göstərdiyi qəhrəmanlıqla fəxr edirəm. Elnur Xocavənd-Şuşa istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Onun zabit kimi müqəddəs arzusu var idi: torpaqlarımızı azad, vətənimizi müstəqil görmək. Çox şükür ki, ordumuzun gücü, Prezidentimizin qətiyyəti sayəsində buna nail ola bildik. Elnurun şəhid xəbərini eşidəndə təbii ki, bir ata kimi kədərləndim. Amma "Vətən sağ olsun" - dedim. Müharibədə ölümün, yaralının olacağını kim bilmirdi ki? Biz buna hazır idik. Sağ olsun dövlətimiz ki, bizə diqqət, hörmət, ehtiyacı olanlara hər cür qayğı göstərir. Amma mən bütün maddi yardımlardan könüllü olaraq imtina etmişəm. Oğlumu ora maddi qazanc üçün göndərməmişdim. Elnur döyüşə vətən üçün getmişdi... Vətəndən, torpaqdan böyük qazanc ola bilməz. Çox şükür ki, biz bunu qazandıq. Amma çox təəssüf edirəm ki, müharibədən sonra bəzi "qəhrəmanlar" peyda olub. Onlar bəzi saytlarda, sosial səbəkələrdə hay-həşirlə müxtəlif imtiyazlar tələb edirlər. Belələrini görəndə mən bir şəhid atası kimi xəcalət çəkirəm. Bunlar bizim övladların adlarına, müqəddəs qələbəmizə xələl gətirməyə çalışanlardır".

Şəhid Rəcəb Məmmədovun atası Xalid Məmmədov isə deyir:

- Rəcəb Füzulinin azadlığı uğurunda şəhid olub. Eyni gündə Cəbrayılın azadlığı uğrunda qaynımın oğlu Təbrizi də itirdik. Amma mən haradasa oğlumun, ya yaxın qohumumun şəhid olmasını dilimə belə gətirmirəm. Bunun üçün xüsusi imtiyaz sahibi olmağı da düşünmürəm. Oğul vətəni qorumaq üçün dünyaya gəlir. Oğulun vəzifəsi vətəni qorumaq, lazım gələndə canını qurban verməkdir. Bundan ötrü ya dövlətə, ya millətə minnət qoyulmaz. Amma bəzən elə adamlar ortalığa çıxıb qazi adından istifadə etməyə çalışır ki, bu, təəssüf doğurur. Onların hərəkətlərinə, tutduqları əmələ görə biz də xəcalət çəkirik.

Postmüharibə dövrünün özünəməxsusluğu, psevdo "qəhrəmanların" labüdlüyü, həmişə haqqı olanlardan daha çox haqsızların, fürsətgirlərin meydan sulayıb, nə isə qazanmaq cəhdi olub. Amma çox təəssüf ki, bu cür saxta, döyüş görməyib "qazi olan" fürsətgirlərə inanan, eyni zamanda onlara dəm tutan "millət qəhrəmanları", hər yerdə və her şeydə pis bir şey axtaran ünsürlər də az deyil. Belələri yaxşı bilməlidirlər ki, Vətən adına görülən iş təmənnasız, böyük məqsədlər naminə ediləndə daha gözəl və qiymətli olur.

Vətən müharibəsinin iştirakçısı Xüsusi Təyinatlı Qüvvələrin baş leytenantı həkim Namiq Seyfəddinli:

- Vətən müharibəsi zamanı həm zabit kimi döyüşmüşəm, həm də həkim olaraq 300-dən çox yaralıya tibbi xidmət göstərmişəm. Eyni zamanda yaralıların döyüş mövqeyindən çıxarılıb təxliyyə edilməsinə yardımçı olmuşam. Bunları "sağ ol", "orden, medal", ya da xüsusi imtiyaz üçün etməmişəm. Əsgər, vətənini sevən bir vətəndaş, torpaqlarının işğal altında qalmasını istəməyən minlərlə azərbaycanlı kimi etmişəm. 44 günlük müharibə zamanı Füzuli, Cəbrayıl, Xocavənd və Hadrutun işğaldan azad olunması uğrunda döyüşlərdə iştirak etmişəm. Noyabrın əvvəllərində isə Şuşa əməliyyatına hazırlıq gedirdi. Şəxsi heyətin tək həkimi mən idim. Həyatda bir amalım olub, həm torpaqlarımızı azad etmək, həm də yaralı döyüşçüləri sağaltmaq. Bundan ötrü var gücümlə çalışırdım. Hətta ən çətin məqamlarda yaralılara motivasiya verirdim. Noyabrın 5-dən 6-na keçən gecə yanıma top mərmisi düşdü və bir neçə nəfərlə birlikdə mən də yaralandım.

Həmin gün ərazidən 9 yaralıya ilkin yardım etdikdən sonra birlikdə 36 saat yol gedərək onları Xocalının Çanaqçı kəndindəki tibb məntəqəsinə çatdırdım. Prezident, Ali Baş Komandan İlham Əliyev tərəfindən "Döyüşdə fərqlənməyə görə", "Şuşanın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olundum. Hazırda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyində həkim-ekspert kimi çalışıram. Vətən müharibəsi iştirakçılarının, eləcə də ötən əsrin 90-cı illərinin Qarabağ döyüşlərində iştirak etmiş və əlillik müddətinin uzaldılması və qazilərin əlilliyinin qiymətləndirilməsi ilə məşğul olanlardan biriyəm. Agentliyin həkimləri bütün müharibə iştirakçılarına həssaslıqla yanaşırlar. Bu proses çox şəffaf keçirilir. Qiymətləndirmədə komissiya üzvləri arasında müharibədə iştirak etmiş həkimlərimiz az deyil.

Bütövlükdə sistem elə qurulub ki, hər kəsə fərdi yanaşılır. Təbii ki, imtina qərarını verəndə müəyyən qədər narazılıq olur, amma mən bir Vətən müharibəsi iştirakçısı kimi onlara məsələni izah edirəm. İçərilərində sağaltdığım insanlar da olur. Bu zaman bütün ədalət prinsipləri əsas götürülür. Axı onlar mənim dünənki döyüş yoldaşlarım olub. Təəssüf ki, içərisində haqqı olmayanlar, fürsətgirlər də az deyil. Belələri daha çox səs-küy salır, xüsusi imtiyazlar tələb edir. Onlar insanları çaşdırmağa çalışırlar. İstərdim ki, xalqımız bilsin: biz keçmiş döyüşçülərə kömək etmək üçün oradayıq, kiminsə halal haqqını tapdamaq üçün yox.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# Meymunçiçəyi yayılmaqda davam edir

## Qorxulu olsa da, xəstəliyin ölüm riski azdır

**Koronavirus bəlası tam bitməmiş başqa bir yoluxucu xəstəlik insanları təşvişə salıb. Bu dəfə insanları təhdid altına alan meymunçiçəyi virusunun həyəcan təbili çalınır.**

Ümumdünya Səhiyyə Təşkilatı hazırda bu virusun müşahidə edildiyi 19 ölkədə 131 yoluxma halının və 100-dən artıq şübhəli faktın olduğunu bildirib.

### İngiltərədə qeydə alınan virus 19 ölkəyə yayılıb

Avropada ilk dəfə mayın 7-də İngiltərədə müşahidə edilən xəstəlik Nigeriyaya səfərindən sonra ölkəsinə qayıdan şəxsdə qeydə alınıb. Virusa Nigeriyada yoluxduğu güman edilən şəxsdən sonra Böyük Britaniyada indiyə qədər 20 nəfərdə meymunçiçəyi aşkarlanıb.

İngiltərənin ardından Avstraliyada bu xəstəlik qeydə alınıb. Böyük Britaniyadan səfərdən qayıdan bir kişidə müşahidə edilən vəziyyət araşdırıldıqdan sonra məlum olub ki, o, meymunçiçəyinə ölkəyə gəlməzdən öncə yoluxubmuş.

Bir aya yaxındır ki, meymunçiçəyi virusuna yoluxanların sayı artmaqdadır. Hazırda bu virusa daha çox Mərkəzi və Qərbi Afrikada rast gəlinsə də, xəstəliyin yayıldığı ölkələr arasında ABŞ, Kanada, İspaniya, Portuqaliya, Böyük Britaniya, Fransa, İtaliya, İsveç, Avstriya, Avstraliya və s. yer alır. Yoluxma statistikasının ilk iki pilləsində isə İspaniya (40 nəfər) və Portuqaliya (37 nəfər) qərarlaşıb. Virusun yayıldığı ölkələrdə hələ ki, ölüm faktı qeydə alınmayıb.

### Meymunçiçəyinin yoluxuculuğu daha azdır

Meymunçiçəyi təbiətdə dövr edən sonsuz sayda viruslardan biridir. Suçiçəyi virusu ilə bənzərlik təşkil etsə də, ölüm nisbəti daha azdır. Virusun mutasiyaya uğraması ilə bağlı dəqiq məlumatlar olmasa da, dəyişkənliyə meyilli olduğu qeyd edilir. Həmçinin o da bildirilir ki, çiçək vaksini meymunçiçəyi virusuna qarşı 85 faiz təsirlidir. Lakin hər kəsin bu vaksini vurdurmasına ehtiyac yoxdur.

Meymunçiçəyinin xarakterik simptomlarına qızdırma, başağrısı, limfa düyünlərində şişkinlik, kürək, bel və əzələ ağrısı aid edilir. Qızdırmadan sonra əvvəlcə üzdə, sonra bədənin digər nahiyyələrində, əsasən də ovuc və ayaq altında kəskin səpkilər yaranır. Qaşınan və ağrılı olan bu səpkilərin sonrakı sağalma mərhələsində rəngi solğunlaşır, üzəri qabıq bağlayır və düşür. İnfeksiya, adətən, öz-özünə keçir və sağalma müddəti 14-21 gün təşkil edir. Virus fiziki təmasla yayılır.

### Azərbaycanda zəruri tədbirlərin görülməsinə hələlik ehtiyac yoxdur

Mütəxəssislər ölkəmizdə hazırda bu vəziyyətlə bağlı xüsusi tədbirlərin görülməsinə ehtiyac olmadığını, lakin virusun daim diqqətdə saxlanılmasının və insanların da bunu nəzərə almalarının vacibliyini vurğulayırlar.

Eyni zamanda əhali bu mövzu ilə bağlı maarifləndirilməli, belə vəziyyətin qeydə alındığı təqdirdə həkimə müraciət edilməlidir. Həmçinin bütün virusların başlıca yayılma mexanizmi fiziki təmas olduğundan daim gigiyenik qaydalara lazımi formada əməl olunmalıdır. Meymunçiçəyi ilə bağlı böyük təşvişə gərək yoxdur. Ancaq nəzərə alınmalıdır ki, bəzi hallarda uşaqlarda, hamilə qadınlarda və ya digər immuniteti zəif olan şəxslərdə simptomlar ağır müşahidə edilə bilər.

Dünya COVID-19 pandemiyasının təsirindən qismən yeni-yeni çıxarkən, fərqli bir xəstəliyin meydana çıxması və yayılması bir çox insanı qorxuya salıb. Yeni bir virus müşahidə edildiyi andan yenidən qapanmaların olacağı, ölüm hallarının qeydə alınacağı, təcrid olunmuş formada yaşamın davam etdiriləcəyi hər kəsi narahat edir. Nəzərə alınmalıdır ki, hər hansı bir xəstəliyə qalib gəlməyin başlıca yolu sağlam psixologiyadan və ruh yüksəkliyindən keçir. İstənilən virusa qarşı isə qorunma tədbirlərini yerinə yetirmək, tövsiyələrə əməl edib doğru davranışlar sərgiləmək ən effektiv variantdır.

***Aydan XƏLİLOVA,***
***"Azərbaycan"***

# REGİONLAR





# Təbiət köməyə gəlir

## Havaların yağmurlu keçməsi taxılçıların işinə yarayır

Səfalı təbiəti ilə seçilən Göygölün insanları işgüzardır. Yəqin elə bunun nəticəsidir ki, göygöllü fermerlər kənd təsərrüfatının bütün sahələri üzrə hər il yüksək göstəricilər əldə edirlər. Bununla həm özlərinin dolanışıqlarını təmin edirlər, həm də ölkəmizin aqrar sektorunun inkişafına töhfələr verirlər.

Götürək taxılçılığı. Rayon taxılçıları əvvəlki illərdən fərqli olaraq keçən il daha çox məhsul istehsalına nail oldular. Belə ki, 7125 hektar sahədən 22117 ton taxıl biçildi. Hər hektardan 31 sentner taxıl əldə edən təsərrüfat sahibləri məhsuldarlıq üzrə əvvəlki ilin göstəricisini arxada qoydular.

Taxılçılar bu il də bol taxıl yetişdirmək üçün bütün qüvvələrini səfərbərliyə almışlar. Şum və səpin işləri optimal müddətdə aparılmışdır. Fermerlər 7020 hektarda payızlıq səpin aparmışlar ki, onun da 4474 hektarı buğda, 2546 hektarı arpadır. Əkilmiş taxılın 2505 hektarı suvarılan, 4515 hektarı dəmyə əraziləridir.

Taxılçılıqda məhsuldarlığı yüksəltmək üçün fermerlər yemləmə gübrələrinin vaxtında verilməsini diqqət mərkəzində saxlayırlar. İndiyədək taxıl sahələrinə 77,7 ton ammonium nitrat, 487,3 ton karbamid gübrəsi verilmişdir. Bundan başqa, sahələri ziyanvericilərdən və müxtəlif xəstəliklərdən qorumaq üçün də tədbirlər görülür.

Qeyd etmək lazımdır ki, son vaxtlar havaların yağmurlu keçməsi rayon ərazisində suvarma suyuna olan tələbatı qismən təmin etmişdir. Əsasən, Gəncəçay və Qoşqarçay çaylarında suyun həcmi xeyli çoxalmışdır ki, bu da rayonda payızlıq taxıl əkinlərinin suvarılmasını xeyli yaxşılaşdırmışdır.

Hazırda rayonda taxılçılıqda zəngin təcrübə toplamış onlarla fermer var. Onlardan biri Taleh Hüseynovdur. Fermer keçən il 56 hektar sahədən 253 ton taxıl götürmüşdür. Hər hektardan məhsuldarlığı 45 sentnerə çatdıran Taleh bu göstərici ilə rayonda birinci olmuşdur. Amma o, tək deyil. Keçən il Altay Ələkbərov 189 hektardan 690, Fuad Zalov 195 hektardan 705,9, Rafail Mustafayev 103 hektardan 370 ton taxıl biçmişdir. Lakin fermerlər bunları son hədd hesab etmirlər.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Tovuzda daha bir şəhidin xatirəsi əbədiləşdirilib

Qədirbilən tovuzlular Qarabağ müharibəsində şəhid olmuş övladlarının xatirəsini əbədiləşdirmək üçün müxtəlif tədbirlər həyata keçirirlər. Bu günlər daha bir şəhidin şərəfinə bulaq kompleksinin açılışı olmuşdur.



Rayonun Koxanəbi kəndinin sakini, şəhid Muraz Ələkbərovun  xatirəsini əbədiləşdirən bulaq kompleksinin açılışına yüzlərlə həmvətəni toplaşmışdı. Mərasimdə çıxış edənlər Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında zəfərlə başa çatan 44 günlük Vətən müharibəsində qazanılan qələbənin tarixi əhəmiyyətindən, tovuzlu gənclərin bu döyüşlərdə göstərdikləri qəhrəmanlıqlardan danışmışlar. Şəhidin atası və rayon ictimaiyyətinin nümayəndələri isə şəhidlə bağlı xatirələrini söyləmiş, Vətən müharibəsi dövründə ordumuzun və xalqımızın göstərdiyi şücaətdən, qəhrəmanlıqlardan söz açmışlar.

Qeyd edək ki, Muraz Məzahir oğlu Ələkbərov 23 mart 1995-ci ildə Tovuzun Koxanəbi kəndində anadan olub. 2001-2012-ci illərdə kənd tam orta məktəbində təhsil alıb. 2013-2014-cü illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olan Muraz 2014-cü ildən müddətdən artıq həqiqi hərbi xidmət göstərib. Azərbaycan Silahlı Qüvvələrinin əsgəri olan Muraz Ələkbərov 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsində Füzuli və Cəbrayılın azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak edib. O, oktyabrın 20-də Cəbrayıl rayonu uğrunda gedən döyüşlərdə şəhid olub. Tovuz rayonunun Koxanəbi kəndində dəfn edilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamları ilə Ələkbərov Muraz Məzahir oğlu "Vətən uğrunda" və "İgidliyə görə" medalları ilə təltif olunub.

***S.ƏLİYEV,***
***"Azərbaycan"***

# Aqrar sektorda 1,6 milyard manatlıqdan çox məhsul istehsal edilib

Cari ilin yanvar-aprel ayları üzrə istehsal olunan kənd təsərrüfatı məhsullarının faktiki qiymətlərlə dəyəri 1 milyard 685,2 milyon manata çatıb.

Bu məhsulların 1 milyard 540 milyon manatlığı heyvandarlıq, 145,2 milyon manatlığı isə bitkiçilik məhsullarının payına düşür. Dövlət Statistika Komitəsindən verilən məlumata əsasən, ötən ilin müvafiq dövrü ilə müqayisədə kənd təsərrüfatı məhsullarının istehsalı sahəsində 3,6, o cümlədən heyvandarlıq məhsulları üzrə 2,8, bitkiçilik məhsulları üzrə isə 14,8 faiz artım olub.

# Cənub bölgəsində çay yığımına başlanıb

Cənub bölgəsində hər il aprel ayının sonlarından çay yığımına başlayan fermerlər builki yığıma mayın sonunda start veriblər. Buna səbəb aprel ayında havaların yağışlı keçməsi olub.

Çay plantasiyalarında məhsul boldur. AZƏRTAC xəbər verir ki, əsas hissəsi Lənkəran iqtisadi rayonunun payına düşməklə ölkədə 21 min hektara yaxın ərazinin təbii iqlim şəraiti, torpaqların mövcud vəziyyəti çay bitkisinin becərilməsinə imkan verir. "Azərbaycan Respublikasında çayçılığın inkişafına dair 2018-2027-ci illər üçün Dövlət Proqramı"nın icrası nəticəsində 2027-ci ilədək əkin sahələrinin 3 min hektara, yaşıl çay yarpağı yığımının isə 8,5 min tona çatdırılması nəzərdə tutulur. Proqramın qəbulundan ötən 4 il müddətində bu sahədə inkişaf qeydə alınıb. Amma bu il yazda havaların yağıntılı keçməsi çay yığımını bir qədər gecikdirib.

Lənkəran rayonunun Havzova kənd sakini, fermer Bəhrəm Kərimov uzun illərdir çayçılıqla məşğuldur. Hər il 7-8 ton çay yığan fermer bu il 10 ton çay yığmağı qarşıya məqsəd qoyub: "55 ilə yaxındır çayçılıqla məşğulam. Çay bitkisi əkiləndən 6 il sonra yığılır. 60 sot ərazidir. Bundan sonra 3 dəfə yığım aparacağam. Yığıma iki gündür başlamışıq".

Çay kollarının tam məhsul verməsi üçün 8-9 ilə qədər vaxt lazımdır. Bununla yanaşı, oktyabr-noyabr aylarına qədər çay yığımı aparılır. Astaralı fermer Beytulla Mirzəyevin 30 hektar çay əkini sahəsi var: "Çay bitkisinə gərək qulluq edəsən. Qışda şum işləri görülür, ondan sonra gübrə səpilir. Gübrə tələb edən bitkidir. Gübrə verilməsə, inkişaf edə bilməz. Çay yığımı əsasən may ayında aparılır. İlk çay yığımı qurtarandan sonra yenidən 2-ci dəfə becərilmə aparılır. Əgər vaxtında qulluq olunsa, mövsümdə 4-5 dəfə çay yığmaq mümkündür".

# Daha 20 min neftçalalı yol sarıdan rahatlığa çıxır

Neftçalanın 3 yaşayış məntəqəsini əhatə edən Neftçala-Kürkənd-2 N-li Mayak marşrutu üzrə 19 km-lik avtomobil yolu uzun müddət idi ki, əsaslı şəkildə təmir edilmirdi. Bu üzdən mövcud örtükdə artıq deformasiyalar yaranmışdı.

Mövcud borular yararsız vəziyyətdə olduğu üçün "İnşaat Norma və Qaydaları"na əsasən yolboyu suların ötürülməsini təmin etmək məqsədilə yenilərinin quraşdırılması, boru başlıqlarının tikilməsi işləri də görülür. Texnoloji ardıcıllığa uyğun olaraq daha sonra yola yeni asfalt-beton örtüyünün döşənməsi icra ediləcək. Tikinti işlərinin sonunda hərəkətin normal təşkili üçün yol nişanları, km göstəricilərinin quraşdırılması, üfüqi nişanlanma xətlərinin çəkilməsi və dayanacaqların qoyulması nəzərdə tutulub.



Bu isə normal hərəkətin təşkili üçün problemlərə səbəb olurdu. Artıq bütün bunlar Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin əraziyə cəlb olunmuş xüsusi tikinti briqadasının gördüyü təxirəsalınmaz tədbirlər hesabına geridə qalır.

Avtomobil yolu 4-cü texniki dərəcəyə uyğun yenidən qurulur. Bunun üçün yolboyu torpaq, qazma, yolun profilə salınması işləri görülür. Yol yatağı hazır olan hissələrdə isə normativ qalınlıqda yol əsasının alt və üst layının tikintisi işləri aparılır. Yolun torpaq yatağının eni 10, hərəkət hissəsi isə 6 metrdir.

Layihə üzrə sadalanan işlərin icrası ilə yolboyu müasir infrastruktur yaradılmış olacaq. Bu isə 3 yaşayış məntəqəsinin 20 mindən artıq əhalisinin rahat gediş-gəlişinə səbəb olacaq, yük və sərnişin daşımasını asanlaşdıracaq.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

# Quba və Qusarın yüksək dağlıq ərazilərinə 20 santimetrədək qar yağıb



**Quba və Qusar rayonlarının yüksək dağlıq ərazilərinə 20 santimetrədək qar yağıb.**

Qubada yerləşən Şimal-Şərq Regional Hidrometeorologiya Mərkəzindən AZƏRTAC-a verilən məlumata görə, Qırız kəndində qarın hündürlüyü 14 santimetrdir. Xınalıq kənd sakinləri isə bildiriblər ki, hazırda kənddə 10 santimetr hündürlüyündə qar var. Dağlıq ərazilərdə temperatur mənfi 1 dərəcəyədək aşağı düşüb.

Azərbaycanın ən ucqar yaşayış məntəqələrindən biri olan Qusarın Yergi Kek kəndində də 20 santimetr qar qeydə alınıb. Bu kənd dəniz səviyyəsindən 2370 metr yüksəklikdə yerləşir.

# Adı və dadı ilə tanınan Naxçıvan göycəsi



## Bu əvəzsiz meyvə sortunun tarixi VII əsrə gedib çıxır

İndi göycənin yeyilən vaxtıdır. Qiyməti "ceyran beli"ndən olsa da, az adam tapılar ki, bu vaxtlar ağızsulandıran göycənin dadına baxmasın. Bəs vətəni Naxçıvan sayılan bu meyvə sortu haqqında dadından savayı nə bilirik?

Qədim Naxçıvan zəngin əkinçilik, o cümlədən meyvəçilik ənənələrinə malikdir. Bu diyarda bir çox meyvə sortlarının meydana gəlməsi məhz xalq seleksiyasının nümunələridir. Belə brend meyvə sortlarından biri də adı və dadı ilə tanınan Naxçıvan göycəsidir. Müalicəvi və antioksidant xassəyə malik olan bu sort muxtar respublika ərazisində yüksək dada, keyfiyyətə və əmtəə görünüşünə malikdir.

Naxçıvan Muxtar Respublikasında meyvəçilik aqrar sektorun ən gəlirli sahələrindəndir. Hazırda əhalinin bitki mənşəli ərzaqlarla dolğun təminatında müxtəlif meyvə məhsullarının istehsalının yüksəldilməsi aktual problemlərdən biridir. Təsadüfi deyil ki, Naxçıvan MR-də meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə 2012-2015, 2016-2020, 2021-2025-ci illəri əhatə edən üç dövlət proqramı qəbul edilmişdir. Dövlət proqramlarının icrası çərçivəsində 2020-ci ildə  muxtar respublikada meyvə istehsalı 62 min, üzüm istehsalı isə 30 min tona çatmışdır. Muxtar respublikada aqrar sektorun dinamik inkişafı meyvəçiliyin də genişləndirilməsi ilə müşayiət olunur. Təkcə 2021-ci ildə 145,6 hektar sahədə meyvə bağı salınmış, 280 hektarda əkin-bərpa işləri aparılmışdır. Meyvə-tərəvəz istehsalı ilə məşğul olan ailə təsərrüfatlarına dövlət maliyyə dəstəyi göstərilir. 2021-ci ildə muxtar respublikanın Sahibkarlığın İnkişafı Fondu tərəfindən meyvə-tərəvəz istehsalı ilə məşğul olan ailə təsərrüfatlarına 8 layihə üzrə 129 min manat həcmində güzəştli kredit verilmişdir.

Qeyd edək ki, 2016-cı ildən başlayaraq ənənəvi olaraq göycə festivallarının keçirilməsi milli-mənəvi dəyərlərimizdən olan əkinçilik mədəniyyətimizə, həmçinin müasir dövrdə meyvəçilik ənənələrimizə göstərilən diqqət və qayğıkeşliyin nümunəsidir. 2016-cı ildə keçirilən "Göycə festivalı"nda 70 torpaq mülkiyyətçisinin yetişdirdiyi 3, 2017-ci ildə 11 tondan çox, 2018-ci ildə 186 fərdi təsərrüfatçı tərəfindən ümumilikdə 12 ton 700 kiloqram məhsul ucuz qiymətə satılmışdır. 2019-cu ildə keçirilən festivala 18 tondan çox göycə çıxarılmışdır. İyunun əvvəlində keçiriləcək ənənəvi "Göycə festivalı"na isə Naxçıvan şəhərindən, Şərur, Kəngərli, Babək, Culfa və Ordubad rayonlarından olan 230-dan çox fərdi təsərrüfat sahibi tərəfindən 20 tondan çox göycə meyvəsi və ondan hazırlanmış müxtəlif çeşidli məhsulların çıxarılması gözlənilir.

Naxçıvan göycəsi xalq seleksiyası sayəsində yaradılmışdır. Bu sortun yeyilməyə başlanması dövrü ölkə, o cümlədən respublika ərazisində meyvə mövsümünün başlanmasından xəbər verir. Yeri gəlmişkən qeyd edək ki, "göycə" sözü yalnız Naxçıvan dialektinə aiddir. "Göycə" sözündəki "göy" sözü yeni, təzə mənasını ifadə edir. Hələ VII əsrdə Naxçıvan bölgəsində olan səyyahların xatirələrində bu sort haqqında məlumatlara rast gəlinir. Maraqlıdır ki, Naxçıvan göycəsi hazırda Azərbaycanın digər bölgələrinə yayılsa da, bu regionda, xüsusilə Araz su anbarı vadisində becərilən sortun biomorfoloji xüsusiyyətləri, dadı, keyfiyyəti digər rayonlarda müşahidə olunmur. Regionda torpaq-iqlim şəraiti bu sortun tez böyüməsi, inkişafı, bol və yüksəkkeyfiyyətli məhsul verməsi üçün olduqca əlverişlidir. Əsasən, düzən ərazilərdə Naxçıvan göycəsi sortundan ibarət bağların salınması üçün olduqca əlverişli ekoloji mühit mövcuddur.

Muxtar respublikada meyvəçiliyin davamlı inkişafı məqsədilə bioloji və fitosanitar baxımdan təmiz olan, yüksək məhsuldar, keyfiyyətli, müxtəlif vaxtlarda yetişən ayrı-ayrı çəyirdəkli, qoz və giləmeyvələrin aborigen sortları ilə yanaşı, faraş meyvə sortu olan Naxçıvan göycəsinin də irihəcmli plantasiyaları salınır. Həmçinin aqrar sektorda kənd təsərrüfatı məhsullarının ixracının artırılmasında, xarici bazarlara rəqabətədavamlı məhsulların çıxarılmasında mühüm işlər yerinə yetirilir. Muxtar respublikada çoxşaxəli ailə təsərrüfatları, ixtisaslaşdırılmış fermer təsərrüfatları və istehsal sahələrinin yaradılması, toplanılan məhsulun uzun müddət saxlanılması üçün soyuducu anbarların tikilməsi, məhsulların beynəlxalq standartlara uyğun qablaşdırılması və ixracının təşkili üçün də tədbirlər görülür. Meyvə məhsulları üçün təkcə ötən il muxtar respublikada 6 soyuducu anbar, 5 istixana təsərrüfatı yaradılmışdır.

Naxçıvan göycəsi sortu ən çox düzənlik və orta dağlıq ərazilərdə becərilir. Bu meyvə Naxçıvan şəhərində, Babək qəsəbəsində, Qaraçuğ, Tumbul, Zeynəddin, Şıxmahmud və başqa kəndlərdə daha tez yetişir. Ağacları 2,5-3,5 metr hündürlükdə olmaqla, yazda yarpaq açmamışdan əvvəl çiçəkləyir. Çoxlu çiçək əmələ gəlsə də, onların  əksəriyyəti tozlanmadan sonra tökülür. Meyvələri may ayının ortalarında faraş yeyilməyə başlayır. İlk vaxtlar turş olsa da, getdikcə şirinləşir, iyul ayının axırında və avqust ayının əvvəllərində tam fizioloji yetişkənliyə çatır. Meyvələrinin qabığı nazikdir, ilk vaxtlar yaşıl rəngdə olur. Ətli hissə isə qalındır. Hər meyvədə bir kiçik toxum olur. Məhsulu tam yetişdikdə ətli hissə daha çox sulanır, şirinləşir və rəngi saralır. Çoxillik ağaclar, adətən, 10-25 il normal məhsul verir. Hər ağacdan ildə orta hesabla 30-50 kiloqrama qədər məhsul toplanılır. Onu da qeyd edək ki, ağaclar 35⁰ C-yə qədər şaxtaya dözümlüdür.

Naxçıvan göycəsi, adətən, yazda, yayda və payızda müxtəlif calaq üsulları ilə çoxaldılır. Calaqaltı kimi çəyirdəkli meyvələrin tinglərindən istifadə edilir. Göycə ağacı üzərində cavan zoğların kökləndirilməsi üsulu ilə çoxaldılma daha səmərəlidir. Çünki gələcəkdə belə göycə ağacından əmələ gələn yeni kök pöhrələri də əkin materialı kimi istifadə oluna bilər. Calaqetmədə albuxara ağacından istifadə etdikdə meyvələri nisbətən iri və şirin, badam ağacına calaq edildikdə ağacları uzunömürlü olur.

Əsl göycə sortunu təkrar calaqetmə yolu ilə əldə etmək mümkündür. Yəni calaq edilmiş göycə sortuna növbəti il yenidən təkrar göycə calaq olunur. Calaq edildikdən iki il sonra ağac məhsul verməyə başlayır. Ağaclarda erkən yazda lazım olan qaydada quru budama aparılmalıdır. Ağacların çətirinə elə forma verilməlidir ki, şah və ətraf budaqlar bir-birindən 50-60 santimetr məsafədə aralı olsun. Yarpaqlama və çiçəkləmə vaxtı çətir daxilinə günəş şüaları düşsün və normal havalanma gedə bilsin. Naxçıvan göycəsinin meyvə plantasiyası şəklində becərilməsi əkin sistemində ağacların ara məsafəsi 2,5-3, cərgə aralarının 3-3,5 metr olması daha məqsədəuyğundur.

Naxçıvan göycə sortu göbələk xəstəliklərinə dözümlüdür. Ancaq zərərvericilərə, xüsusilə mənənələrə tez yoluxur. Bu ziyanvericiyə qarşı əgər normal səviyyədə kimyəvi mübarizə aparılmasa, ağaclar hətta növbəti il quruya bilər. Naxçıvan göycəsi sortu normal aqrotexniki becərilmə şəraitində hər il yüksək məhsul vermək xüsusiyyətinə malikdir. Avqust ayının əvvəllərində tam fizioloji yetişmiş meyvələri, adətən, göycə kompotu, göycə qurusu, göycə lavaşası, göycə turşusu və başqa məhsulların alınması üçün istifadə edilir. Belə məhsulların sənaye miqyasında istehsalının təşkili iqtisadi səmərəlidir. Onu da qeyd edək ki, Naxçıvan göycəsi sortu Naxçıvan diyarında tarixən qədimdən becərildiyindən çoxlu variasiyaları meydana gəlmişdir. Belə variasiyalar bir-birindən yetişmə müddətinə, meyvələrinin parametrlərinə, keyfiyyətinə, dadına, şirinliyinə və başqa genetik xüsusiyyətlərinə görə fərqlənirlər. Söz düşmüşkən, son dövrlər bu sort sürətlə digər bölgələrə yayılmaqdadır. Artıq Abşeron, Gəncə-Qazax, Quba, Göyçay və digər rayonlarda da Naxçıvan göycəsi sortunun meyvə plantasiyaları şəklində becərilməsi işlərinə başlanılmışdır.

***Varis QULİYEV,***
***aqrar elmləri doktoru***

*Naxçıvan*

# "Azərişıq" ASC ölkənin bütün regionlarında yenidənqurma işlərini davam etdirir

**Prezident İlham Əliyevin tapşırıqlarına əsasən, "Azərişıq" ASC tərəfindən həyata keçirilən investisiya layihəsi çərçivəsində Şamaxının ucqar dağ kəndləri olan Səfalı və Kərkənc kəndlərinin elektrik şəbəkəsi yenidən qurulub.**

"Azərişıq" ASC-nin Mətbuat xidmətinin verdiyi məlumata görə, yenidənqurma işləri nəticəsində 25 abonenti olan Səfalı kəndində 1 ədəd komplekt transformator məntəqəsi quraşdırılıb. 3 kilometrə yaxın 10 kV-luq, 1 kilometrdən çox 0,4 kV-luq elektrik xətti yenilənib.

Şamaxının Kərkənc kəndində də yenilənmə işləri yekunlaşdırılıb. 144 abonenti olan kənd ərazisində müxtəlif güclərdə 2 ədəd komplekt transformator məntəqəsi quraşdırılıb. 18 kilometrə yaxın 10 kV-luq, 5 kilometrdən çox 0,4 kV-luq elektrik xətti dəyişdirilib.

Hər iki kənddə elektrik sayğacları yeniləri ilə əvəzlənib.

Şamaxının Səfalı və Kərkənc kəndləri ilə yanaşı, Mədrəsə qəsəbəsi, Zarat Xeybəri və Ərçiman kəndlərində də yenidənqurma işləri başa çatıb. Ümumilikdə 900-ə yaxın abonent keyfiyyətli, dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təmin edilib.

Xatırladaq ki, investisiya layihəsi bütün regionlarda 100-dən çox kəndi əhatə edir.

# 18 yaşında 20 can aldı

## ABŞ-da ənənəyə çevrilən "məktəb terroru" ölkədə silah satışına qadağanı yenidən gündəmə gətirdi

ABŞ-da silahlı hücum nəticəsində daha bir faciə yaşanıb. Texas ştatının Yuvald şəhərindəki məktəbdə atışma zamanı 19 ibtidai sinif şagirdi və bir müəllim həlak olub. Daha 13 uşaq və bir qadın xəstəxanalara çatdırılıb, onlar müxtəlif dərəcəli bədən xəsarətləri alıblar. Hücum edən 18 yaşlı yerli sakin Salvador Romas isə güllələnib. Yerli mətbuatın məlumatına görə, o, həmin məktəbin şagirdi olub.

ABŞ Prezidenti Co Bayden həlak olanların ailələri ilə birlikdə yas tutduğunu bildirərək silaha nəzarət qanunlarına mane olan silah lobbisinə qarşı müvafiq təşkilatları təcili tədbirlər görməyə çağırıb.

### Qatil öncə nənəsini güllələyib

Atəş açan şəxs avtomobilini məktəbin yaxınlığında qoyaraq binaya daxil olub və atəş açıb. Məktəbə getməzdən əvvəl Romas nənəsini güllələyib. Onun atışmadan sonra məktəb binasında istehkam qurduğu bildirilir.

"Associated Press" agentliyi xəbər verir ki, o, məktəbin yaxınlığında olan və atışma səsini eşidən kimi ora qaçan ABŞ Sərhəd Xidmətinin əməkdaşı tərəfindən güllələnib. Cinayətkarla atışma zamanı daha iki sərhədçi xəsarət alıb. Onlardan biri başından yaralanıb.

Müstəntiqlər qatilin təkbaşına hərəkət etdiyini güman edirlər. Cinayətin motivləri hələlik məlum deyil.

### "Biz nə vaxt silah lobbisinin qarşısını alacağıq?"

Faciə baş verən zaman ABŞ Prezidenti Co Bayden Asiya səfərindən qayıdırmış və ona təyyarədə olarkən məlumat verilib. Prezident həlak olanlar üçün matəm əlaməti olaraq Ağ Ev və digər ictimai binalar üzərində dövlət bayraqlarının mayın 28-i axşam saatlarına kimi endirilməsini əmr edib. Bayden xalqa müraciət edərək amerikalıları silahlara sərbəst sahib olmaq hüququnu müdafiə edən nüfuzlu lobbiyə qarşı çıxış etməyə çağırıb: "Mən ümid edirdim ki, prezident olanda bir daha bu cür faciələri yaşamayacam. Bir millət olaraq özümüzə sual verməliyik. Tanrının adı ilə, biz nə vaxt silah lobbisinin qarşısını alacağıq? Mənə deməyin ki, biz bu qırğınlara təsir edə bilmərik". Co Bayden həmçinin qeyd edib ki, 18 yaşlı gəncin mağazaya girib asanlıqla avtomat və tapança ala bilməsi fikri kökündən yanlışdır. Bu cür kütləvi qətllər dünyanın başqa yerlərində nadir hallarda baş verir.

### Amerika davamlı olaraq ürəkağrıdan fəryadlar ölkəsinə çevrilir

Texasdakı faciədən sonra silah satışına nəzarətin gücləndirilməsi zərurətini digər nüfuzlu demokratlar da dilə gətirib. ABŞ-ın vitse-prezidenti Kamala Harris, "hər şeyin bir həddi var" - deyərək, ağıllı və düşünülmüş siyasət yürütməyi vacib bilib.

Prezidentliyə keçmiş namizəd Hillari Klintonun fikrincə, Amerika davamlı ürəkağrıdan fəryadlar ölkəsinə çevrilir və artıq təkcə fikirlər və dualar kifayət etmir: "Bizim sadəcə olaraq Amerikada uşaqlarımızı öldürən silah zorakılığı bəlasını dayan-









dırmaq iradəsi olan qanunvericilərə ehtiyacımız var".

Texas ştatının respublikaçı senatoru Ted Kruz hadisəni "dəhşətli olay" adlandırıb, lakin onun fikrincə, silah dövriyyəsi ilə bağlı qanunda islahatlar bu cür hücumların qarşısını almağa kömək etməyəcək: "Qanuna tabe olan vətəndaşların hüquqlarını məhdudlaşdırmaq nəticə verməyəcək. Bu, səmərəsizdir və cinayətin qarşısını almır. Əvvəlki təcrübəyə əsaslanaraq, uşaqların həyatını təhlükəsiz saxlamaq üçün ən təsirli üsul məktəbləri silahlı mühafizəçilərlə təmin etməkdir".

Co Bayden Ağ Evə namizədliyini irəli sürərkən odlu silah satışı zamanı yoxlamaları sərtləşdirəcəyini və hər il silahla baş verən on minlərlə ölüm hallarının sayını azaldacağını vəd etmişdi. Lakin o və demokrat həmkarları silah alıcılarının şəxsiyyətini ciddi yoxlamaq tələbini qəbul etdirmək üçün konqresdə kifayət qədər səs toplaya bilməmişdilər.

### Son iki həftədə silahlı hücum nəticəsində 32 nəfər ölüb, 40 nəfərdən çox adam yaralanıb

ABŞ-da məktəblərə silahlı hücumlar müntəzəm təkrarlanan fövqəladə vəziyyətə çevrilib. Ötən il ölkədə bu cür 26 insident qeydə alınıb.

Ən qanlı hadisələrdən biri də 2012-ci ildə Konnektikutda Sendi-Huk ibtidai məktəbinə hücum olub. 20 yaşlı oğlan tərəfindən həyata keçirilən hücumun 26 qurbanından 20-si 5-6 yaş arasında uşaqlar idi.

Xəstəliklərə Nəzarət və Qarşısının Alınması Mərkəzinin ötən ay açıqladığı məlumata görə, odlu silahlar 2020-ci ildə ABŞ-da uşaq və yeniyetmələrin ölümünün əsas səbəbi kimi avtomobil qəzalarını üstələyib.

Cenevrədə yerləşən "Small Arms Survey" tədqiqatlar qrupunun araşdırmasına əsasən, Birləşmiş Ştatlar dünyanın ən çox silahlanmış cəmiyyətidir.

ABŞ-ın "Gun Violence Archive" qeyri-kommersiya təşkilatı təkcə 2022-ci ilin may ayında ölkədə 215 silahlı insident qeydə alıb ki, onlardan doqquzu dörd nəfərdən çox adamın ölümü ilə nəticələnib. Son iki həftə ərzində Viskonsin, Nyu-York, Kaliforniya və Texas ştatlarında baş vermiş atışmalarda 32 nəfər həlak olub, 40 nəfərdən çox adam yaralanıb.

Xatırladaq ki, hələ 2016-cı ildə ABŞ prezidenti Barak Obama Florida ştatının Orlando şəhərindəki "Pulse" gecə klubunda baş vermiş kütləvi atışmadan sonra silah daşımaq hüququnun məhdudlaşdırılmasını təklif etmişdi. Lakin heç bir tədbir görülməmişdi...

### Mədəniyyətin bir hissəsi?

Amerika mədəniyyətində silah daşımaq azadlığı mühafizəkar liberalizmin bir hissəsidir. Bu, silah gəzdirmək, özünü və ailəsini müdafiə etmək azadlığı əvvəldən Konstitusiyada yer alıb.

ABŞ Konstitusiyasına İkinci düzəliş Müstəqillik Bəyannaməsində təsbit olunmuş xalqın hökumətə qarşı silahlı üsyan etmək hüququnu həyata keçirir. Sənəddə deyilir ki, "daim eyni məqsədə tabe olan uzunsürən sui-istifadələr və zorakılıqlar xalqı qeyri-məhdud despotizmi qəbul etməyə məcbur etmək üçün məkrli plana çevriləndə, belə bir hökumətin devrilməsi və gələcək üçün yeni təhlükəsizlik təminatlarının yaradılması xalqın haqqı və borcudur".

İkinci düzəliş tərəfdarları hesab edirlər ki, silaha sahib olmaq onların hüquqlarının mərkəzi hökumətdən qorunmasının təminatıdır və onların satışını məhdudlaşdırmaq cəhdləri, məsələn, demokratların odlu silah və ov tüfənglərinin satışına təklif etdiyi qadağa hüququn pozulmasıdır. Bu fikri respublikaçıların lideri Donald Trampın elektoratının əhəmiyyətli bir hissəsi bölüşür.

Göründüyü kimi, ABŞ-da hər bir kütləvi atışma ölkə Konstitusiyasına İkinci düzəlişin əleyhdarları və tərəfdarları arasında şiddətli mübahisələrlə müşayiət olunur. Məhdudlaşdırıcı tədbirlərin əsas əleyhdarı NRA - Milli Atıcılıq Assosiasiyası və respublikaçılardır. Demokratlar, əksinə, silah lobbisinə qarşıdırlar. Bu, ABŞ cəmiyyətinin təxminən yarıya böldüyü məsələlərdən biridir.

2019-cu ildə Ağ Evin başçısı Donald Tramp Nyu York prokurorluğunun ABŞ Milli Atıcılıq Assosiasiyasının əleyhinə araşdırma başlatmasından sonra həmin təşkilatı müdafiə edib. Qeyd etdiyimiz kimi, bu qurum ABŞ Konstitusiyasına İkinci düzəlişlə təmin edilən vətəndaşların silah daşımaq hüququnun əsas lobbiçisidir.

Politoloqlar bildirirlər ki, bu çətin məsələ təkcə demokratları və respublikaçıları deyil, bütövlükdə Amerika cəmiyyətinin özünü də parçalayıb.

Bir müddət əvvəl "Pew Research Center" Araşdırma Mərkəzinin keçirdiyi sorğulara görə, amerikalıların 47 faizi silah daşımaq və saxlamaq hüquqlarının məhdudlaşdırılmasına qarşı, 51 faizi isə lehinədir.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*


# OXUCULARIN NƏZƏRİNƏ!
# "AZƏRBAYCAN"

*qəzetinə 2022-ci il üçün*
*abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


# İrəvan əhalisi küçə aksiyalarından bezib

## Keçmiş hərbi xunta indi də uşaqları siyasi alətə çevirir

Ermənistanda davam edən etirazlar fonunda siyasi böhran gündən-günə kəskinləşir. Bu həm də sosial-iqtisadi vəziyyətin pisləşməsinə səbəb olub. Müxalifət partiyaları baş nazir Nikol Paşinyanı hakimiyyətdən uzaqlaşdırmaq üçün birləşsə də, hələ ki, heç bir nəticəyə nail ola bilmirlər.

Etirazlar bütün ölkəni əhatə etmir. Bəzi iqtidar saytları artıq insanların küçə aksiyalarından bezdiyini yazırlar. Erməni politoloqlarının fikrincə, bu, ondan xəbər verir ki, hələlik Ermənistanda baş naziri istefaya məcbur edə biləcək qüvvə mövcud deyil.

Aksiyaların növbəti günü etirazçılar İrəvanda prezident administrasiyasının binasını mühasirəyə alıblar. Hadisə yerində olan deputat Qeqam Manukyan bildirib ki, prezident Vaaqn Xaçaturyan öz səlahiyyətlərini yerinə yetirmir.

Bu arada aksiyaya azyaşlı uşaqların cəlb edilməsi diqqət çəkib. Müxalifyönlü saytlar bu anormal hadisəyə don geyindirməyə çalışaraq onu günün fotosu kimi təqdim edib. İqtidar saytları isə körpə uşaqların siyasi alətə çevrilməsini etirazçıların ən son variantlara əl atması kimi qiymətləndirib. Bütün dünyada qəbul olunan bir qayda var ki, heç kim sərbəst toplaşmaq azadlığından istifadə edib mitinq və ya yürüşlərə körpələri gətirməməlidir. Hətta əksər ölkələrdə buna görə valideynləri sərt cəza da gözləyir. Çünki icazəsiz aksiyalar, küçə yürüşlərinin 90 faizində hüquq-mühafizə orqanları əməkdaşları ilə toqquşma ehtimalı var. İrəvanda isə bunun əksini görürük. Bir balaca qarışıqlıq yaransa, kütlənin ayaqları altında qalaraq dünyasını dəyişəcək bu körpələrə görə məsuliyyəti dövlət yox, onu siyasi alətə çevirib foto çəkərək paylaşan məsuliyyətsiz valideynlər daşıyacaq. Qeyd edək ki, İkinci Qarabağ müharibəsi zamanı da ermənilər uşaqlardan öz məqsədlərinə çatmaq üçün istifadə edir, azyaşlıları hərbi əmliyyatlara cəlb edirdilər.

Ermənistan müxalifətinin "Müqavimət" hərəkatının koordinatoru, daşnak İxşan Saqatelyan çıxılmaz duruma düşüb.



Yürüş zamanı jurnalist ona "artıq bir aydır ki, küçələrdə mübarizə aparırsınız, nə vaxt uğur qazanacaqsınız? Bir təxmininiz varmı" sualını verib. Saqatelyan isə küçə aksiyalarının effektivliyi barədə ümumi ifadələr işlətməklə sualdan yayınmağa çalışıb: "Biz heç vaxt son tarix təyin etməmişik. Aksiyalara başlamazdan əvvəl nə bir gün, nə bir həftə, nə də başqa bir tarix haqqında danışmamışıq. Amma uğura necə çatmağımız üçün bir düstur deyirik. Həmçinin aşkar şəkildə bəyan edirik ki, Paşinyanın daha bir gün də hakimiyyətdə qalması təhlükəlidir".

Bütün bunların fonunda siyasi ekspertlər hesab edirlər ki, müxalifətlə hakimiyyət arasında hansısa dialoq əsla mümkün deyil. Erməni politoloq Vazgen Xaçaturyanın sözlərinə görə, hakimiyyətin vəzifəsi təkcə polisə və qoşunlara əmr verməkdən ibarət deyil: "Yəni ölkədə hakimiyyət olması, əmrlərin yerinə yetirilməsi üçün cəmiyyət iqtidara inanmalıdır. İndi bu inam yoxdur. Ermənistan baş naziri legitimliyini itirməyə doğru gedir. Onsuz da onun legitimliyi yox idi. İndi o, nə xarici siyasəti, nə də daxili siyasəti müəyyənləşdirə bilir". Politoloqun fikrincə, siyasi partiyalar vəziyyətdən sui-istifadə etməyə can atmaq əvəzinə, böhrandan çıxış yolunu aramalıdırlar: "Problemin həlli N.Paşinyanın mövqeyində yox, cəmiyyətin konkret qərarlar qəbul etməsindədir. Cəmiyyət isə indiki hakimiyyətin iqtidardan getməsini tələb edir və bu hal Paşinyan komandasının durumunu daha da ağırlaşdırır".

Bu arada dünya iqtisadiyyatında yaranan qeyri-müəyyənliyin və çətinliklərin digər ölkələrlə müqayisədə Ermənistana daha çox dağıdıcı təsir göstərdiyi qeyd edilir. Xüsusən də Rusiyada rublun məzənnəsinin aşağı düşməsi Ermənistan iqtisadiyyatı üçün də böyük fəlakət sayılır. Əvvəlki illərlə müqayisədə 2021-ci ildə Ermənistanda xüsusilə ərzaq məhsullarının qiymətlərində 11,5 faiz artım qeydə alınıb. İnflyasiya ilə yanaşı, insanların gəlirləri mütənasib şəkildə artmayıb və bu, erməni əhalisini daha da yoxsullaşdırıb. Ötən ilin inflyasiyasını təkcə dünya bazarı deyil, həm də daxili amillər şərtləndirib. Ermənistan hökuməti kənd təsərrüfatı istehsalı və emalı kreditləri üzrə faiz dərəcələrinin subsidiyalaşdırılması üçün milyardlarla dram ayırsa da, 2021-ci ildə aqrar sektorda xeyli azalma müşahidə olunub.

Bütövlükdə bütün bunlar Ermənistanın böyük tənəzzül yaşadığını göstərir. Görünən budur ki, sülh müqaviləsinin imzalanmasının uzadılması fonunda İrəvan üzləşdiyi problemlərdən hələ uzun müddət xilas ola bilməyəcək.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*


«AZƏRBAYCAN» qəzetinin reklam xidməti 539-49-20

"Caspian Marine Services B.V." şirkətinin Azərbaycan Respublikasındakı filialına aid olan "Quba" gəmisinin Dövlət Dəniz Agentliyi tərəfindən verilmiş gəminin "Əmniyyətli İdarəetmə haqqında Beynəlxalq Məcəllə"nin tələblərinə uyğun olması haqqında No027-20/Xİİİ nömrəli Şəhadətnaməsinin əsli itdiyi üçün etibarsız sayılır.



BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 5932
Sifariş 1443
Qiyməti 40 qəpik